# REGION PRESS

№03 (178) 13.02.2015

Qəzet 2008-ci il martın 15-dən çıxır

İctimai qəzet

“რეგიონ პრესი” საზოგადოებრივი გაზეთი

www.amm.ge





## Azərbaycan-Gürcüstan-Türkiyə Biznes Forumu keçiriləcək

***Martın 6-da Batumi şəhərində Azərbaycan-Gürcüstan-Türkiyə Biznes Forumunun keçirilməsi nəzərdə tutulur.***



Bu barədə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondundan (AZPROMO) məlumat ve-rilib.

Qeyd edək ki, forumda üç ölkənin rəsmi və iş adamlarının iştirakı gözlənilir.

Azərbaycan nümayəndə heyətinin üzvləri ikitərəfli görüşlərdə Türkiyə və Gürcüstan iş adamları arasında özlərinə tərəfdaşlar tapmaq və iş əlaqələri qurmaq imkanı əldə edəcəklər.

## Gürcüstanda uşaqlar məktəbə yalnız 6 yaşından gedəcəklər

Yeni tədris ilindən Gürcüstanda uşaqları məktəblərə yalnız 6 yaşından qəbul edəcəklər. Bu cür qərar Elm və Təhsil Nazirliyi nümayəndələrinin psixoloq və valideynlərlə görüşündə qəbul olunub. Psixoloqların fikrincə, valideynlərin “uşaq oxuyub-yazmaqla məktəbə hazırdır” fikri səhvdir. Dərs yükünün artırılması ilə uşaq daha çox psixoloji təzyiqi hiss edəcək. Bu isə yuxarı siniflərdə kəskin şəkildə özünü büruzə verəcək. İlkin məlumatlara görə, Gürcüstan məktəblərində uşaqların online qeydiyyatı may ayında başalanacaq. Dəqiq tarix isə mart ayının ortalarında məlum olacaq.



Bildiririk ki, 2014-cü ildə dərs ili başlananadək 6 yaşına çatmış və ya 2015-ci il yanvarın 1-nədək 6 yaşı tamam olmuş uşaqlar birinci sininflərə qəbul olunmuşlar.



## Təbrik edirik!

### *"Gürcüstan" qəzetinin redaktoru İslam Əliyev “Əməkdar jurnalist” adına layiq görülüb*

**Gürcüstan jurnalistikasında uzunmüddətli uğurlu fəaliyyətinə görə "Gürcüstan" qəzetinin redaktoru İslam Əliyev “Əməkdar jurnalist” adına layiq görülüb.**

Bu barədə Gürcüstan Jurnalistlər İttifaqı məlumat yayıb.

Qeyd edək ki, İ. Əliyev 1965-ci ildə Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə qəbul olub və 1970-ci ildən indiyədək "Gürcüstan" qəzetində çalışır. O, qəzetdə korrektor vəzifəsindən zəngin yaradıcılığı nəticəsində redaktor vəzifəsinədək yüksəlib.

O, 2004-cü ildən 2014-cü ilədək eyni zamanda AzərTac-ın Gürcüstan müxbiri vəzifəsində çalışıb. Bu ildən "Gürcüstan" qəzetinin redaktoru kimi şərəfli və məsuliyyətli vəzifəyə təyin edilib.

İ. Əliyev mətbuatda səmərəli fəaliyyətinə görə, Gürcüstan dövlətinin digər mükafatları ilə də təltif edilib.

---

**Tbilisidə azərbaycanlı alimin Bodenştedt və Mirzə Şəfidən bəhs edən məruzəsi dinlənilib**



Nizami Məmmədzadə

Səh.5-də

**Heyvanlar padşahının Eldoradosu** *(neqativ)*



İbrahimxəlil

Səh.6-da

**“XALQIN ŞƏXSİYYƏTLƏRƏ EHTİYACI VAR”**

***Xalq şairi Zəlimxan Yaqubla müsahibə***



Musa Nəbioğlu

Səh.7-də

**Gənc rəqqasənin arzudan reallığa çevrilən uğuru**



Şəlalə Əmircanova

Səh.9-da

# Gürcüstan kəndlərinin qazlaşdırılması üçün 7 mln. manatdan çox vəsait ayrılıb

***Bu günlərdə Gürcüstanın Kaspi bələdiyyəsinə aid Vake kəndinə təbii qazın verilməsinə başlanılıb.***



Azərbaycan Dövlət Neft Şirkətindən (SOCAR) verilən məlumata görə, bu münasibətlə keçirilən mərasimdə ölkənin baş naziri İrakli Qaribaşvili, baş nazirin müavini və energetika naziri Kaxa Kaladze, dövlət naziri Paata Zakareişvili, Şida-Kartli qubernatoru Zurab Rusişvili, Kaspi bələdiyyəsinin başçısı Qoça Qoçitaşvili, Gürcüstanın qaz nəqli şirkətinin baş direktoru Mamuka Kobaxidze, "SOCAR Georgia" şirkətinin baş direktoru Mahir Məmmədov, ictimaiyyət və media nümayəndələri iştirak ediblər. Qaz məşəlini ölkənin baş naziri, energetika naziri və şirkət rəhbərləri alovlandırıblar.

Kaspi bələdiyyəsinə daxil olan ümumilikdə 10 kəndin, o cümlədən Vake, Axalşeni, Qoraka, Xviti, Tvaurebi, Karafila, Saribari, Zadiaantkari, Sokarintlo və Pantiani kəndlərinin qazlaşdırılması dövlət proqramı çərçivəsində həyata keçirilir. Bu məqsədlə 36 202 metr uzunluğunda boru kəməri çəkilib və 648 evdə sayğac quraşdırılıb. Kvemoçala yaşayış məntəqəsində yerləşən Vake, Qoraka və Axalşeni kəndlərinin qazlaşdırılması üçün artıq 10 692 metr uzunluğunda orta təzyiqli boru kəməri çəkilib, burada yaşayan 162 ailə təbii qazla təmin olunub.

Bu bölgələrin qazlaşdırılması layihəsinə 2014-cü ildə start verilib. Layihənin həyata keçirilməsi üçün dövlət büdcəsindən 19 mln. lari (7 396 700 manat) vəsait ayrılıb. Qori, Kareli, Kaspi, Xaşuri və Zuqdidi bələdiyyələrinin 58 kəndində aparılan qazlaşdırma işləri nəticəsində 13000 ailə təbii qazla təmin olunacaq. Başa çatmaqda olan qazlaşdırma işləri Gürcüstanın qaz nəqli şirkəti tərəfindən podratçılar vasitəsilə aparılır.

# Marneulidə qanvermə aksiyası keçirilib

Marneuli şəhərində fəaliyyət göstərən "Əhli-Beyt" cəmiyyətinin təşkilatçılığı ilə talassemiya və digər xəstəliklərdən əziyyət çəkənlərə yardım məqsədilə qanvermə aksiyası keçirilib. Tədbir "Qan verək, həyat bəxş edək!", "Yaşamağıma kömək et!" şüarları altında təşkil edilib. Aksiyada 50 nəfərdən çox gənc və möminlər könüllü olaraq qan veriblər. Aksiya nəticəsində 25 litr qan toplanıb.

Cəmiyyətin sədri Hacı Rasim Məmmədov bildirib ki, belə aksiyaları keçirtməkdə məqsəd İslam dininin sülhsevər, ədalətli, xeyriyyəçi və xeyirxah bir din olduğunu bir daha təsdiq etməkdir. "İslam dininə qulluq edən bütün müsəlmanlar terrorçuluqdan uzaq, dinsevər insanlardır, onlar şərəfli dinimizin qayda-qanunlarına və Allah kəlamlarına əməl edirlər".

Onun sözlərinə görə, toplanan qan talassemiya xəstəliyindən əziyyət çəkən insanlar üçün nəzərdə tutulub: "Biz düşünürük ki, dinindən və milliyyətindən, irqindən asılı olmayaraq, bütün insanlar toplanan bu qandan istifadə edə biləcək", deyə cəmiyyətin sədri vurğulayıb.



# Marneuli özünüidarəsi imkansız ailələrə odun yanacağı ilə yardım edir

Hazırda əhali arasında yanacağa tələbat artıb. Yerli özünüidarə aztəminatlı ailələrə yanacaq sarıdan yardım göstərmək məqsədi ilə 105 sosial cəhətdən aztəminatlı və müharibədə həlak olanların ailələrinə pulsuz odun yanacağı verilib.



Hər bir ailə üçün nəzərdə tutulmuş 2 kubmetr odunun hazırlanması və təqdim edilməsini özünüidarə özü üzərinə götürüb. Bu işə icra hakimiyyətinin sosial, nəzarət xidmətləri və MMC "Kommunal Təsərrüfat" və Sakrebulo da qoşulub.

İmkansız ailələrə yanacağın paylanma prosesi fevralın 10-dan başlayaraq mərhələ ilə davam edəcək.

# 14 Fevral Sevgililər Günüdür

Sevgi …Sevgililər. Necə gözəl , necə məlahətli səslənir, elə deyilmi? Axı bizim, uzaqdan baxdığımız çox şeylər bizə gözəl və asan görünür. Bəli, sevgi unudulmaz, ülvi, pak bir hissdir. Fəqət yaşamağı, sevməyi bilənə...Amma iki ayrı insanın əl-ələ verib eyni yolda, cığırda irəliləməsi və həyatın saysız-hesabsız oyunlarına tap gətirə bilməsi heç də asan iş deyil; ümumiyyətlə sevgi, sevmək asan iş deyil .Axı hər gözəllik, hər qələbə qurbanlar tələb edir. Sevgi – Məhəbbət həyatın ən böyük qələbəsidir .



***Bayramınız mübarək, sevib-sevilənlər!***

# SOCAR Gürcüstanda daha 11 məscidi təbii qazla təmin edəcək

***Azərbaycan Dövlət Neft Şirkətinin Gürcüstandakı nümayəndəliyi bu ilin yanvar ayından etibarən Bütün Gürcüstan Müsəlmanları İdarəsi ilə məscidlərin təmənnasız olaraq qazla təmin olunması barədə memorandum imzalayıb.***

Bu barədə Bütün Gürcüstan Müsəlmanları İdarəsinin sədri Hacı Ramin İgidov məlumat verib.



Onun sözlərinə görə, bugünədək Gürcüstandakı məscidlərdən yalnız bir neçəsi bu yardım proqramından faydalana bilib: "Hazırda isə yaxınlığından qaz borusunun keçdiyi bütün məscidlərimiz bu proqramdan yararlana biləcək."

Bütün Gürcüstan Müsəlmanları İdarəsinin ruhaniləri bu xeyirxah addıma görə ARDNŞ-ə və onun Gürcüstandakı nümayəndəliyinin direktoru Mahir Məmmədova minnətdarlıqlarını bildiriblər.

# İranda dini və tarixi məkanlara ziyarət

Yanvarın 21-dən 29-na kimi bir qrup zəvvar İran İslam Respublikasında müqəddəs məkanları ziyarət etmişlər. Bütün Gürcüstan Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə şeyx və muftilər Gürcüstanın müxtəlif rayonlarından və Acarıstan Muxtar vilayətindən din və ictimaiyyət xadimləri, QHT sədr və nümayəndələrindən ibarət 25 nəfərlik ziyarət karvanı İİR-nın önəmli şəhərləri olan Tehran, Təbriz, Qum və Məşhəd şəhərlərindəki dini və tarixi məkanları ziyarət etmişlər. Olduqları şəhərlərdə alimlərlə görüşlər keçirmişlər.

BGMİ-nin din rəhbərləri bu ziyarətin təşkilində maddi və mənəvi yardım göstərən İİR-dakı dini təşkilatlara minnətdarlığını bildirir.



GÜRCÜSTAN

SAYI 11-12 (12.285)
CÜMƏ 6 FEVRAL 2015-ci İL

# Hörmətli oxucular!

Bu il mayın 5-də ömrünün 40 ilindən çoxunu "Gürcüstan" (keçmiş "Sovet Gürcüstanı") qəzetinin baş redaktoru vəzifəsinə həsr etmiş görkəmli ziyalı, ictimai-siyasi xadim Süleyman Məhəmməd oğlu Süleymanovun doğum gününün 80 illiyi tamam olur. Qəzetin oxucular arasında nüfuzunun daha da yüksəldilməsində, onun yaşadılmasında xüsusi xidməti olan mərhum Süleyman Əfəndinin xatirəsini əbədiləşdirmək məqsədilə redaksiya "Qəzet – oxucu problemləri: onun həlli yollarını nədə görürəm" mövzusunda müsabiqə elan edir. Yazıların qəbulu aprelin 25-dək davam edəcəkdir. Münsiflər heyətinin qalib saydığı məqalələrin müəllifləri mükafatla ndırılacaq və yazılar qəzetimizdə dərc olunacaqdır.

**Ünvanı xatırladırıq: *Tbilisi şəhəri, D.Ağmaşenebeli prospekti 89/24, "Gürcüstan" qəzetinin redaksiyası.***

# Gürcüstan XİN elektron viza sistemi yaradıb




Gürcüstan xarici ölkə vətəndaşlarının ölkəyə səfərini asanlaşdırmaq üçün elektron viza sistemi yaradıb. Gürcüstan Xarici İşlər Nazirliyi tərəfindən yaradılan www.evisa.gov.ge saytı turizm, diplomatik, rəsmi və digər məqsədli səfərlər üçün qısamüddətli viza almaq imkanı verəcək. Bununla da dünyanın 102 ölkəsindən vətəndaşlar Gürcüstana səfər etmək üçün daha asan yolla viza ala biləcəklər. Viza almaq istəyən şəxslər sayta daxil olmalı, onlayn ərizəni doldurmalı, plastik kartla ödəniş etməlidir.

Xatırladaq ki, daha öncə Gürcüstana səfər etmək istəyən əcnəbilər öz ölkələrindəki Gürcüstan səfirliyinə müraciət etməli olurdular. Gürcüstan hökuməti ümid edir ki, yeni sistem ölkənin turizm sektorunun inkişafına imkan yaradacaq.

# GÜRCÜSTANDA ÖLKƏNİN DİNİ TƏQVİMİNDƏ İSLAMIN BAYRAM VƏ ÖNƏMLİ GÜNLƏRİ DƏ YER ALMIŞDIR

Bu il, ilk olaraq Dini Məsələlər üzrə Dövlət Agentliyi tərəfindən dərc olunmuş təqvimdə digər dinlərin bayramları ilə bir yerdə İslam dininin müqəddəs günləri də yer almışdır. Qurban və Ramazan kimi böyük bayramlarla yanaşı Hz. Peyğəmbərin mövludu (s), Hz. İmam Əli (ə) və Hz. Xanım Zəhranın təvəllüd günləri, Məbəs və Qədir-xum bayramları, Aşura və kandil gecələri qeyd olunubdur.



# M. Məmmədov: *Burada qeyri-adi bir şey yoxdur*

Gürcüstanın Rəqabətlilik Agentliyi Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) bu ölkədəki törəmə şirkəti olan "SOCAR-Georgia" ilə bağlı araşdırmalara başlayıb.

"APA-Economics"in Gürcüstan mətbuatına istinadən verdiyi məlumata görə, araşdırmalara səbəb "SOCAR-Georgia"nın avtomobil qazı bazarında inhisarçı mövqeyə sahib olması ilə bağlıdır. Gürcüstanın dövlət qurumu hesab edir ki, Azərbaycan şirkəti "Rəqabət haqqında" Qanunun bəzi müddəalarını pozur və digər iqtisadi agentlərlə rəqabəti məhdudlaşdıran müqavilələr imzalayır.

"SOCAR-Georgia"nın baş direktoru Mahir Məmmədov isə "APA-Economics"ə bildirib ki, Gürcüstanın baş naziri yanında İqtisadi Şurada sözügedən məsələ müzakirə olunub.

"Araşdırmanın aparılması Rəqabət Agentliyinin tam səlahiyyətindədir. Biz bu araşdırmaya qarşı çıxmırıq. Burada qeyri-adi bir şey yoxdur", - deyə M. Məmmədov bildirib.

Bununla belə M. Məmmədov dövlət qurumunun əsas gətirdiyi dəlillərlə razılaşmır: "SOCAR-Georgia"nın tətbiq etdiyi qiymətlər uzun müddətdir ki, müəyyən olunub. Son vaxtlar şirkət qiymətləri dəyişdirməyib, qiymətlərin dəyişdirilməsində təşəbbüskar olmayıb. İstər topdansatış, istər pərakəndə, istərsə də ixrac qiymətlərində dəyişiklər edilməsində təşəbbüskar olmayıb. Bu məsələ heç bir şəxs qarşısında qaldırılmayıb".

# Gürcüstan parlamentinin aqrar komitəsinin sədri: *"Azərbaycanla əməkdaşlığımıza heç kim mane ola bilməz"*

"Bu gün Gürcüstandan Avropaya, qonşu ölkələrə, o cümlədən Azərbaycana kənd təsərrüfatı məhsulları ixrac olunur. Biz Azərbaycanla kənd təsərrüfatı məhsullarının ekoloji təmizliyi sahəsində fəal əməkdaşlıq edə bilərik. Mən Avropa Parlamentinin iqtisadiyyat komitəsinin həmsədriyəm. Biz Azərbaycan parlamentinin üzvləri ilə Avropa Parlamentindəki görüşlərimizdə iqtisadi məsələləri həll etməyə çalışırıq".



Bunu APA-nın Gürcüstan müxbirinə açıqlamasında Gürcüstan parlamentinin aqrar komitəsinin sədri Qiqla Aqulaşvili deyib.

O, qeyd edib ki, yaxın gələcəkdə azərbaycanlı həmkarına daha sıx əməkdaşlıq üçün yazılı şəkildə müraciət edəcək: "Dövlətlərarası əməkdaşlığımıza heç kim süni şəkildə mane ola bilməz. Dövlətlərimizin məmurları bir-biri ilə yaxşı əməkdaşlıq edirlər. Bu əməkdaşlığı parlamentlər səviyyəsində daha da inkişaf etdirmək olar. Gürcüstan parlamentində Gürcüstan-Azərbaycan Dostluq Qrupu fəaliyyət göstərir".

Q. Aqulaşvili Kür, Araz və Gürcüstanda azərbaycanlıların kompakt yaşadığı bölgələrdən keçən və mənbəyini Ermənistandan alan Debed çayının çirkləndirilməsi və bu çaylara zəhərli maddələrin axıdılmasına da münasibət bildirib: "Ekologiya ilə bağlı məsələləri birlikdə həll etməliyik. Tərəflər bu mövzunu təkbaşına həll edə bilməz. Təbiətin, çayların çirkləndirilməsi və zəhərli tullantıların axıdılması beynəlxalq qanunlarla tənzimlənir və heç bir dövlət bu qanunun əksinə addım atmamalıdır. Bütün dövlətlərdə su mənbələri qanunauyğun şəkildə qorunmalı, beynəlxalq konvensiyaların qəbul etdiyi qərarlara ciddi şəkildə əməl edilməlidir".

Komitə sədri Azərbaycana aparılan məhsulların sərhəddən keçirilməsi məsələsinə də münasibət bildirib: "Gürcüstanda yetişdirilən məhsulların Azərbaycana aparılması barədə biz tərəfdən heç bir maneə yoxdur. Lakin müəyyən mövsüm və məhsullar var ki, Azərbaycan sərhədlərində onlara qadağa qoyulub, çünki Azərbaycan öz məhsul istehsalını qorumaq istəyir. Eyni zamanda, Azərbaycandan keçməklə, Gürcüstanın istehsal etdiyi məhsulların Rusiyaya göndərilməsində problemlər var idi. Düzünü desək, bu işlər qanunla görülmürdü. Bu günlərdə Berlində Rusiya ilə Gürcüstan arasında kənd təsərrüfatı məhsullarının Rusiya bazarlarına göndərilməsi barədə razılıq əldə olunub. Artıq bizim məhsullarımız üçün Rusiya bazarına yol açılacaq. Amma mən Gürcüstan tərəfdən Azərbaycana aparılan mallara qadağa qoyulduğunu eşitməmişəm. Əksinə kənd təsərrüfatı sahəsində məhsullarının satışına yüksək şərait yaratmalıyıq və çalışmalıyıq ki, hər iki ölkədə insanlar öz mallarını azad şəkildə bazarlara çıxara bilsinlər. Belə olan təqdirdə rəqabət güclənər və məhsulun keyfiyyəti də yaxşı olar", - deyə o vurğulayıb.

Komitə sədri həmçinin bildirib ki, gələn həftə Gürcüstan parlamentində "Gürcüstanda kənd təsərrüfatı torpaqlarına sahib olmaq haqqında" qanun layihəsi ilə müzakirəyə çıxarılacaq.

# İcra başçısı yeni təyin edilmiş məktəb direktorları ilə görüşüb

***Marneuli rayonunun icra başçısı Merab Topçişvili fevralın 9-da Marneuli ümumi məktəblərinə yeni təyin edilmiş sertifikatlaşdırılmış direktorlar ilə görüşüb.***



Görüşün əsas mövzusu məktəblərdə mövcud durum ilə tanışlıq, inkişaf üçün strateji planın müzakirəsi və təhsil səviyyəsinin qaldırılması məqsədi ilə direktorların bu yöndə görmək istədikləri işlər haqda fikirlərini dinləmək olub.

İcra başçısı Merab Topçişvili görüşdə iştirak edən direktorlara gələcək işlərində uğurlar arzulayaraq əməkdaşlığa daim hazır olduğunu bildirib.

# İcra hakimiyyətinin ənənəvi iclası

Marneuli rayon icra hakimiyyəti binasında Merab Topçişvili, onun müavinləri Kamandar İsmayılov, Zaur Tabatadze və Teymuraz Beridze, İcra hakimiyyətinin xidmət rəhbərləri və icra başçısının kəndlərdəki nümayəndələrinin iştirakı ilə iclas keçirilib. Əməkdaşlar bələdiyyənin hazırkı durumunu, qışla mövsümü ilə bağlı yaranan problemləri və onların həlli yollarını müzakirə ediblər.

İclasda Marneuli bələdiyyəsinin xəstəliklərə nəzarət və ictimai səhiyyə mərkəzinin direktoru Eter Lamparadze də iştirak edib. O, mövsüm ilə əlaqədar peyda olmuş qrip və viruslardan söz açaraq, qeyd edib ki, mərkəz hazırda yayılmış qrip və viruslara qarşı maksimal olaraq tədbirlər görməklə məşğuldur.

İclasda hakimiyyətin təşəbbüsü ilə həyata keçiriləcək "kiçik torpaqlı fermerlərin yaz əkin işlərinə dəstək" layihəsinə böyük diqqət ayrıldı.

Ənənəvi iclasda icra hakimiyyətinin səlahiyyətlərinə daxil olan digər vacib sosial, iqtisadi, mədəni və s. məsələlərə sual-cavab formatında toxunulub.



# İrakli Alasaniya Marneulidə yerli sakinlərlə görüşüb

***Gürcüstanın sabiq müdafiə naziri, "Azad Demokratlar" partiyasının sədri İrakli Alasaniya Marneulidəki Mülki Məşğulluq Mərkəzində yerli sakinlərlə görüşüb.***

Tədbiri partiyanın rayon təşkilatının rəhbəri Ramiz Gülməmmədov aparıb. Tədbirdə çıxış edən İ. Alasaniya partiyanın gələcək perspektivlərindən danışıb.

"Azad Demokratlar" partiyasının 3 aydır "Gürcü arzusu" koalisiyasından çıxdığını deyən İ. Alasaniya partiyanın 2016-cı ildə keçiriləcək seçkilərdə fəal iştirak edəcəyini bildirib. O, qeyd edib ki, onun komandası bundan sonra azərbaycanlıların yığcam yaşadığı bölgələrdə tez-tez görüşlər keçirəcək və azərbaycanlıları narahat edən problemləri dinləyərək onların həlli üçün yeni konsepsiyalarla çıxış edəcək.



Qonşu ölkələrlə münasibətlər barədə söz açan İ. Alasaniya: "Ümidvaram ki, Türkiyə, Azərbaycan və Gürcüstan bir-birinin inkişafı üçün çalışacaqlar. Strateji tərəfdaş olan bu ölkələr Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəmərlərinin, hazırda inşa edilən Bakı-Tbilisi-Qars dəmir yolunun təhlükəsizliyini bir-likdə təmin edəcək. Azərbaycanla Gürcüstanın birgə əməkdaşlığı bizə parlaq gələcək vəd edir. Dövlətimiz həmişə bu əməkdaşlığın inkişafına çalışıb", - deyə vurğulayıb.

Görüş sual-cavab şəraitində davam edib. İ. Alasaniya ilə sabiq nazir, "Azad demokratlar" partiyasının baş katibi Aleksi Petriaşvili, habelə partiyanın digər fəalları onlara verilən sualları cavablandırıblar.

Görüşün sonunda Ramiz Gülməmmədov İ. Alasaniyaya nüqəddəs "Quran" kitabını hədiyyə edib.

# Məşhur fransız aktyoru Alen Delon Gürcüstana səfər edib



***Məşhur fransız aktyoru Alen Delon şəxsi təyyarə ilə Gürcüstana səfər edib.***

O, Tbilisiyə məşhur gürcü opera müğənnisi Paata Burçuladzenin 60 illik yubileyi ilə əlaqədar gəldiyini bildirib.

P. Burçuladzenin yubileyi münasibəti ilə Tbilisi İdman Sarayında yerli və xarici müğənnilərin iştirakı ilə qala-konsert keçirilib. Konsertdə aparıcı A. Delon olub.

"Gürcüstana ilk dəfə gəlmişəm və buna görə məni qınamayın. Gürcüləri qınayın ki, məni indiyədək Gürcüstana dəvət etməyiblər", - deyə aktyor jurnalistlərə açıqlamasında bildirib.

A. Delon səfər çərçivəsində Gürcüstanın patriarx-katalikosu, Müqəddəs və Pak II İlya ilə də görüşüb.

# Ukraynada tərəflər arasında atəşkəs barədə razılıq əldə olundu

***Həlledici görüşdə Ukrayna-Rusiya arasında atəşkəs əldə olunub.***

Rusiya Prezidenti Vladimir Putin, Belarusun paytaxtı Minskdə keçirilən görüşdə Ukraynada toqquşan tərəflərin 15 Fevraldan etibarən atəşkəs elan edilməsi mövzusunda razılaşdıqlarını açıqlayıb.



Putin, Minskdəki Müstəqillik Sarayında keçirilən Ukrayna zirvə görüşündən sonra mətbuat nümayəndələrinə açıqlama verib.

Putin, "Mənə görə bir çox məsələdə razılaşdıq. Bunlardan ilki 15 Fevral saat 00.00-dan etibarən atəşkəs elan edilməsi barədə razılaşmağımızdır. İkincisi,Ukrayna ordusuna məxsus ağır silahların bugünkü mövqeyindən ötən il 19 Sentyabrda Minsk Memorandumunda qeyd olunan xəttə geri çəkilməsidir" deyib.

# "Eurovision"da yeni ölkə

***Avropadan uzaq olan Avstraliya müsabiqənin 60-cı buraxlışına qatılacaq.***

Avstraliya "Eurovision" müsabiqəsinə gedir. Avstraliya yarımfinallarda iştirak etməyəcək. Bu ölkə də qalib Avstrya və beşlik ilə birlikdə birbaşa finala düşəcək. Bu barədə məlumatı mahnı müsabiqəsinin təşkilatçıları yayıblar. Ölkəni müsabiqədə kimin təmsil edəcəyini isə yerli media-holdinq "Special Broadcasting Service" (SBS) seçəcək.



Qeyd edək ki, bu il "Eurovision" müsabiqəsinin yubiley - 60 iliyidir. Avropadan çox aralı olan bu ölkənin müsabiqəyə dəvəti də məhz yubiley tədbirləri ilə bağlı olacaq. Avstraliya müsabiqənin bütün hüquqlarından istifadə edə bilsə də, bu, birdəfəlik dəvətdir. Yubileyə Avstraliyanın dəvət edilməsi isə burada müsabiqəni izləyənlərinin sayının olduqca çox olması ilə bağlıdır. Əgər ölkə təmsilçisi qələbə çalsa gələn isə müsabiqəyə qatılmaq hüququ qazana biləcək. Lakin təşkilatçılar çoxillik təcrübəni pozaraq bu ölkənin "Eurovision 2016" ya ev sahibliyi etməsinə icazə verməyəcəklər. Xatırladaq ki, bu il "Eurovision" müsabiqəsinin yubiley - 60 iliyidir. Ötən il müsabiqənin qalibi Avstrya təmsilçisi, saqqalı qadın kimi tanınan Konçita Vürst olub. Bu il müsabiqənin yarımfinal mərhələləri may ayının 12 və 21-də, finalı isə 23 mayda olacaq.

# Dünyanın ən sevimli adamları




***Rusiya prezidenti Vladimir Putin dünyanın ən sevimli adamlarının reytinqində 11-ci yeri tutub.***

"YouGov" beynəlxalq araşdırma şirkətinin keçirdiyi rəy sorğusunda ilk yeri milyarder Bill Qeyts tutub. ABŞ prezidenti Barak Obama onun ardınca gəlir. İlk üçlükdə Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Si Tszinpin də var.

Reytinqdə dördüncü yerdə aktyor Cek Candır. Onun ardınca Hindistanın baş naziri Narendra Modi, Roma papası Frantsik, Tibet buddistlərinin dini lideri Dalay Lama, "Alibaba" korporasiyasının yaradıcısı Cek Ma, məşhur fizik Stiven Hokinq və ünlü futbolçu Devid Bekhem gəlir.

Qadınlar arasında birinci yerdə Hollivud aktrisası Ancelina Colidir. İkinci yerdə Sülh üzrə Nobel mükafatçısı Malala Yusafzay və ABŞ-ın keçmiş dövlət katibi Hillari Klintondur. Dünyanın ən sevimli qadınları siyahısında Böyük Britaniyanın kraliçası II Yelizaveta, ABŞ-ın birinci ledisi Mişel Obama, müğənni Selin Dion, eləcə də aparıcı Opra Uinfri, aktrisa Culiya Roberts, Birma müxalifətinin lideri Do Aun Su Çji və Almaniyanın kansleri Anqela Merkel də var.

# Bağdadda 8 illik qadağaya son



***İraqın paytaxtı Bağdadda "küçəyə çıxmaq qadağası" aradan qaldırılıb.***

Verilən məlumata görə, 2007-ci ildə tətbiq edilmiş qadağaya əsasən, Bağdad sakinləri gecə saat 24:00-dan sonra küçəyə çıxa bilməzdilər.

Qadağa həmin dövrdə Baş nazir işləmiş Nuri əl-Malikini göstərişi ilə başladılmışdı.

# ETSN: *Kür çayında biogen maddələr normadan artıqır*

Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti Kür və Araz transsərhəd çaylarının və onların transsərhəd qollarının çirklənmə vəziyyətini öyrənmək məqsədilə fevralın birinci ongünlüyü üçün növbəti monitorinqləri keçirib.



Fevralın birinci ongünlüyündə Kür çayında suyun sərfi yanvarın III ongünlüyünə nisbətən 30 m3/san artaraq 150 m3/san təşkil edib.

Monitorinqin nəticələrinə əsasən Gürcüstan və Ermənistan ərazilərindən təmizlənmədən birbaşa su obyektlərinə axıdılan məişət tullantıları və sənaye müəssisələrinin çirkab sularının təsiri nəticəsində Kür çayı və onun qollarında biogen maddələrin miqdarının normadan dəfələrlə artıq olması müşahidə olunub.

Suyun tərkibindəki spesifik çirkləndiricilərdən fenollar Şıxlı-2 məntəqəsində 4, Ağstafaçayda 3.8, Ağstafaçay su anbarında isə 3.4 dəfə yol verilən qatılıq həddini (YVQH) keçib.

Nazirlikdən əlavə ediblər ki, fevralın birinci ongünlüyündə aparılan monitorinqlərin nəticələrinə görə fenollar Araz çayı üzrə Horadizdə 3.2, I Şahsevəndə 3.6, Bəhramtəpədə isə 3.5 dəfə YVQH-ni keçib.

Mis birləşmələri isə Kür və Araz çayları üzrə bütün məntəqələrdə norma daxilində tərəddüd edib.

Suyun oksigen rejimi bütün məntəqələrdə 5.75-6.17 mq/l arasında olmaqla sanitar norma daxilində dəyişib.

# Putin yeni atom stansiyası yaradır

***Rusiya və Misir prezidentləri arasında keçirilən görüşdə regionun təhlükəsizlik məsələləri müzakirə edilib.***



Rusiya prezidenti Vladimir Putin Qahirədə misirli həmkarı Abdel Fattah əl-Sisi ilə görüşündə terrorizmlə mübarizənin müxtəlif yollarından danışıb. Bura həm iqtisadi, həm sosial, həm də ideoloji sahələr aiddir. Putin Misirin şimalında, Aralıq dənizi yaxınlığında "Росатом" tərəfindən yeni atom stansiyasının salınacağını da bildirib. Bu, misir tarixində ilk 1200 mqv-lik atom elektrik stansiyasıdır: "Söhbət təkcə yeni atom elektrik stansiyasının yaradılmasından getmir. Bu, eyni zamanda Misirdə tam bir atom sənayesinin yaradılmasıdır. Yeni stansiya elmin inkişafı və yeni kardların yetişdirilməsi deməkdir".

Sözügedən müqavilənin bütün kommersiya tərəfləri 1 il ərzində imzalanmalıdır.

Stansiyanın tikintisi üçün 5 il müddət ayrılıb.




**1668** — İspaniya Portuqaliyanı müstəqil dövlət kimi tanıdı.

**1739** — Nadir şah Əfşar Karnal döyüşündə moğol hökmdarı Məhəmməd şahı məğlub etdi.

**1880** — Tomas Edison sonradan "Edison effekti" adını alan termoelektron emissiyası hadisəsini müşahidə etdi.

**1960** — Fransa Əlcəzairin cənubundakı Tanezruft səhrasında özünün ilk atom bombasını sınaqdan keçirdi.

**1971** — ABŞ ordusunun hava və artilleriya dəstəyi verdiyi Cənubi Vyetnam ordusu Laosu işğal etdi.

**1984** — Yuri Andropovun vəfatından sonra Konstantin Çernenko Sov.İKP MK-nın baş katibi seçildi.

**1988** — Stepanakertdə DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi tələbi ilə ilk mitinq keçirildi.

# Tbilisidə azərbaycanlı alimin Bodenştedt və Mirzə Şəfidən bəhs edən məruzəsi dinlənilib

Fevralın 10-da Gürcüstan Milli Elmlər Akademiyasında Azərbaycanın Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı "Bodenştedt və Mirzə Şəfi: Qafqazşünaslıq məsələləri" adlı məruzə ilə çıxış edib. Gürcüstan Milli Elmlər Akademiyasında baş tutan tədbiri akademiyanın prezidenti Giorgi Kvesitadze açaraq professor Hamlet İsaxanlı barədə xoş sözlər söyləyərək onun bildirib. O, Mirzə Şəfi Vazehin Azərbaycan dilində böyük bir poemasının da olduğu barədə məlumat verib.

Tədbirdə Hamlet İsaxanlı Gürcüstan Milli Akademiyasının prezidenti Giorgi Kvesitadze Azərbaycanın Milli Atlas kitabını hədiyyə edib.

Tədbirdə Gürcüstanın görkəmli elm və incəsənət adamları, Azərbaycan səfirliyinin nümayəndələri, Gürcüstan parlamentinin Azərbaycan və Gürcüstan alimləri bir çox Avropa layihələrində birlikdə iştirak etməlidir. Biz bu gün qərara aldıq ki, Mirzə Şəfi Vazehin şeirlərini gürcü dilinə tərcümə edək. Mirzə Şəfi bizə doğmadır. Biz ilk növbədə, Tbilisidən bəhs edən Mirzə Şəfi şeirlərini tərcümə etməliyik," - deyə G. Kvesitadze bldirib.

Professor Hamlet İsaxanlı açıqlamasında son 20-25 ildə tarix, ədəbiyyat barədə Avropada məqalələr, monoqrafiyalar, kitablar nəşr etdirdiyini deyib: "Mən bütün bu sahələrə aid əsərlərimi ingilis dilində yazıram və Bodenştedt də qafqazşünas, etnoqraf və tarixçi kimi qələmə aldığı xatirələrində Qafqazın zənginliyindən söhbət açır. Tbilisidə bizim tarixən böyük insanlarımız olub. Bodenştedt Mirzə Şəfi Vazehin şeirləri ilə bərabər 25 rus şairlərinin əsərlərini alman dilinə tərcümə edib. Ruslar onun şeirlərinə 12 romans yazıblar."

**Nizami Məmmədzadə**

xaricdə Azərbaycanı təmsil edən görkəmli alim olduğu haqqında gürcü alimlərinə ətraflı məlumat verib.

Tədbirdə çıxış edən H. İsaxanlı alman tərcüməçi və şairi Fridrix Bodenştedtin Tbilisidə yaşadığı dövrdə apardığı müşahidələr əsasında yazdığı xatirələr barədə və Mirzə Şəfi Vazehin Tiflis mühitində şeir yaradıcılığı və onun əsərlərinin Almaniyada yayılması haqqında fikirlərini bildirib. Hamlet İsaxanlı çıxışında Mirzə Şəfinin öz şeirlərini ən çox fars dilində yazdığını və onun indiyədək Tbilisidəki Kekelidze kitabxanasında 250 səhifəlik şeirlər toplusunun saxlanıldığını üzvləri, universitetlərdə çalışan gürcü və azərbaycanlı professor və müəllim heyəti, Qafqazşünas alimlər, müxtəlif sahələrdə fəaliyyət göstərən azərbaycanlı ziyalılar, ictimaiyyət nümayəndələri, gürcü və azərbaycanlı tələbələr və jurnalistlər iştirak ediblər.

Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti Giorgi Kvesitadze açıqlamasında professor Hamlet İsaxanlının Gürcüstan Milli Elmlər Akademiyasındakı mühazirəsini yüksək qiymətləndirdiyini bildirib: "Biz Hamlet İsaxanlıya bizim dəvətimizi qəbul edib gəldiyi üçün təşəkkür edirik. Onun çıxışını yüksək səviyyədə qiymətləndiririk.



# ELDƏN UZAQ DÜŞMƏYİN ƏZABLARI...



El nədir? Sorğu, sual olmadan izahına çalışım: el-doğulub boyabaşa çatdığın püxtələşdiyin bir məkan, bir bölgədir ki, sənə ondan əziz, doğma, yaxın bir ərazi, məmləkət ola bilməz. El elə bir yurd yeridir ki, oradakı kiçicik bir daxman başqa yerdə tikdirdiyin saraylarından, qəsrlərindən uca və əzəmətlidir. El elə bir obadır ki, oradakı yuvan qədər dünyanın heç bir tərəfində sənə ruh verən, güc verən, coşqu verən yuva ola bilməz.

Sən orada doğulur mən olursan, kiçicik quşcuğaztək böyüyürsən, "qanadlanırsan". Ənginliklərə pərvazlanmaq üçün ayaqlarını o torpağın üstündəki yuvana dirəyirsən, onu dayaq sanırsan. O elin, obanın torpağının qucağında iməkləyir, ayaq yalın gəzir, havasını udur, suyunu içirsən. Gözün ilk dəfə həmin səmanı, həmin torpağı, orada sübh doğub, axşam batan günəşi görür. Oradakı insanların həyat tərzinə alışırsan. İnsanların hərəkətlərini, davranışlarını göz güzgünə hopdurub beyninə, əqlinə əkirsən. Bütün cəhətlərdə maksimum dərəcədə onlara bənzəyirsən. Sənin gülüş və ağlamaq tərzindən tutmuş bütün tərzlərin onlardakı tərzlərin eynisini xatırladır. Sən toyda, yasda belə, onlar kimi oturub, durursan. Davanı, barışı onlar etdiyi kimi edirsən. Mərdliyi, mərdanəliyi, igidliyi, ərliyi, kişiliyi onların səriştəsindən öyrənirsən. Namərdliyin alçaqlıq, qeyrətsizlik olduğunu onların arasında eşidir, əxz edirsən. Bağışlamağı, əl tutmağı, dayaq olmağı onların etdiklərindən götürürsən. Namusun, şərəfin qoruyucusu olmağı onların dəyanətindən, müdrikliyindən başına tac edirsən.

Haqqın, halallığın ucalıq, saflıq nişanəsi olmasını onların eldə yaratdıqları mühitdə münasibət qurma zənginliyindən öyrənərək kamil insan kimi formalaşır, mətinləşirsən. Dünyada gedən prosesləri, dartışmaları qavramaq, çözmək iqtidarında olursan. İnsanlığa yüksək önəm verirsən, əqlin zənginləşir, həyat eşqin artır, elindən, obandan öyrəndiklərin, götürdüklərin yaxşıları dünyanın dörd bir tərəfində yaşayan insanlara ərmağan etmək istəyirsən.

Sənin üçün, öz elini əvəz edən başqa bir məkan, bir diyar olmur. Bəlkə elə ona görə də, eldən uzaq düşməyin əzabları qədər ağrıdıcı, üzücü əzablar yoxdur. Bu fikrin izahına ehtiyac qalmır çünki bu, hər bir anlamlı insana gün kimi aydındır. Əzabları yalnız cismən yox, daha çox mənən çəkirsən. Bütün əzablardan xilas yolu tapıb ondan qurtula bilsən də, mənəvi əzablardan qurtarmaq mümkün deyil. Eldən cismən uzaq düşməyin acıları mənə öyrətdi ki, bu, nə deməkdir, yaşantında, ömür yollarında rastlaşdıqların çətinlikləri dəf etmək nə qədər baha başa gəlir. Eldən uzaq düşmək dedikdə, onu sadəcə, eldən çıxıb, uzaqlara başqa məmləkətlərə köçmək kimi dəyərləndirmək çözüləsi vacib məsələlərə qərəzli yanaşmaqdır. Belə hadisələrdə könüllü olaraq maraq üçün köçənləri barmaqla saymaq olar. Yəni bələləri çox az sayda insanı əhatə edir. Eldən uzaq düşməyə məhkum olanların çoxu təpkilərə, hücumlara, vəhşətlərə məruz qalanlardır. Ölçüyə gəlməz dərəcədə maddi, mənəvi itkilərə məruz qoyulanlardır. Nə yaxşı ki, ruhlarımız həmişə elimizdəobamızda olur, heç olmasa bizləri yurdumuzda bərqərar edir.

Elinə-obasına bağlı hər bir insan can atır ki, elin içində eloğlularının arasında, sırasında olsun. Onların sevincini, kədərini zamanında, məqamında bölüşsün. Bir işin qulpundan yapışsın. Onlara mənəvi, yeri gələndə, maddi dəstək olsun. Onların dar günündə dayaq olsun, köməyinə yetsin. Necə deyərlər, od düşmüş tayasının alovunu söndürmək üçün heç olmasa, bircə dolça su gətirsin. Şən günlərində heç olmasa, bir mehriban gülüş bəxş etsin. Dağlarında borana düşmüş bir çobanın xilasına getsin. Bayramlarda onlarla üzbəüz süfrə başında otursun. Ağsaqqalların, ağbirçəklərin könüllərini alsın, onlarla söhbətləşsin, fikir bölüşsün. Xəstələrə baş çəksin. Əlillərin əlindən tutsun. Ayağa durmaq istəyənlərin əlindən tutub ayağa qalxmasına kömək göstərsin. Bu kimi istəkləri sadalamaqla qurtarmaq olmaz. Sadaladıqlarımın vaxtında edə bilinməməsinin əsas səbəbi eldən uzaq düşməkdir, desəm çaşmayın. Bunların zamanında edilməməsinin əzabı, eldən uzaq düşmək əzablarıdır...

Müasir dövrdə İnformasiya bolluğu yetərincə olsa da, yayımlanma sürəti nə qədər çox artsa da, uzaqda olanlar üçün eldə baş verən ölüm-itim olayları vaxtında çatdırılmır. Bəzən insanlar itki xəbərlərini çatdırmaqdan ehtiyat edirlər. Dünyasını dəyişmiş insanlar haqqında məlumatlar çox gec çatır. Yəni dəfn, yas mərasimlərinə gecikirsən. Ölü sahibinə nə qədər baş sağlığı vermək istəsən də, bu çox zor və mümkünsüz olur. Əqlinlə, ürəyin arasında qalırsan. Biri deyir verməlisən, digəri isə "hüznlünün yarasında qaysaqları qoparma" deyir. Bəzən məsləhət görənlər olur ki, başsağlığını telefonla da bildirmək olar. Mənim qafama girmədiyindən onu önəmli saymıram. Qəlbimlə başımın arasındakı davalardan üzülürəm, əzab çəkirəm.

Çox şükürlər olsun ki, elimizdə yurdun, yuvanın keşiyini çəkən, sanballı, dərin zəkalı müdrik şəxsiyyətlərimiz, ağıllı, mərd oğulqızlarımız var.

Onların vətənə sevgisi, geniş dünya görüşü, iti, zəngin zəkası hesabına elimizdə çox adda dərgilər nəşr olunur, yetərincə insanlara yayılır. Bunlardan biri də Gürcüstan Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin təsis etdiyi çoxtirajlı "RegionPress" qəzetidir. Bu qəzetin köməyi ilə eldə olan bütün məlumatlar demək olar ki, məni və digərlərini dolğun şəkildə məlumatlandırır. Bu dərginin sanballı, məzmunlu çıxmasına görə, dostlarıma, dəyərli eloğlularıma təşəkkür edib saygı, sevgimi bildirməsəm, günah etmiş olaram. Fazil müəllim başda olmaqla Mikayıla, Binnətə, İbrahimxəlilə, Ehtirama və adını çəkmədiyim böyük zəhməti olanların hamısına təşəkkürümü bildirirəm. Professor Mahmud Kamaloğlu sağ olsun ki, hansı yolla olur-olsun, quşun dimdiyində olsa belə, qəzeti mənə çatdırır.

Onun sayəsində mənə çatdırılan saylarda son zamanlar xoş xəbərlərlə yanaşı nə qədər ağır, üzücü xəbərlər aldım?! Saylarda gedən nekroloqları oxuduqca sıxıldım, əzab çəkdim. Kimlər dünyasını dəyişərək haqq dünyasına köçmüşdür. Dostlarım Zabitin, Şahismayılın gənc övladlarının-ciyərparalarının, Binnətin atası, ağsaqqalımız, el şairi Əli Faxralının, gözəl ziyalı, ağsaqqal jurnalist dostum Ziyadxan müəllimin, məsləkdaşlarım Fazil müəllimin, Mikayıl müəllimin, Fərhad müəllimin, Şurəddin müəllimin əzizləri, qohumum Pərişan bibinin və adlarını çəkmədiyim digər el oğul-qızlarının haqqında xəbər tutdum. Bu ağır olayları zamanında bilməməyim, mərasimə vaxtında yetməməyim, bax bunlar eldən uzaq düşməyin əzablarıdır. Dostlarıma, eloğlularıma, elimə, obama, Borçalımda cəmi dünyasını dəyişənlərin doğmalarına başsağlığı verib, "başınız sağ olsun" deyirəm. Hüznlü günlərində yanlarında ola bilməyib, hüznlərində iştirak edə bilmədiyimə görə üzrxahlıq edib, üzr istəyirəm. Onlara səbr diləyirəm. Əqlimlə, Qəlbim bu keşməkeşli olayları çözmək üçün hələ də davadadır. Ulu Tanrıdan diləyim odur ki, heç kəsi eldən uzaq düşməsin, əzab çəkməyə məhkum olmasın...

*Davam yenə davamdadır,*
*İçimdədir, qafamdadır,*
*Sona yetmir, səngiməyir,*
*Toxtaqlaşıb ləngiməyir.*

*Başımdakı ədalətlər,*
*Qəlbimdəki sədaqətlər,*
*Yurdumdadır, yuvamdadır,*
*Əzəl olan havamdadır.*

*Xəncər kimi bağrım deşir,*
*Dəyişməyim müşkül işdir,*
*Yalvarıram, eloğlular,*
*Siz deməyin o keçmişdir.*

*Necə varam olacağam,*
*O havada qalacağam,*
*Üzülürəm, sıxılıram,*
*Günahkarı bulacağam.*

*Yolum xeyli uzaq oldu,*
*Yağı mənə tuzaq oldu,*
*Borçalımda solan gülüm,*
*Mənsiz sənə sazaq oldu.*

*Gecikirəm xeyir-şərə,*
*Yolum kəsib sınır, bərə,*
*Baş endirib ölənlərə,*
*Əfv dilərəm milyon kərə.*

*İnciməyin, eloğlular,*
*Ruhum sizlə coşar, çağlar,*
*Dərdləriniz sinəm dağlar,*
*Mülkədarın kimi var kı,*
*Sizlə gülər, sizlə ağlar...*

**MÜLKƏDAR NADİR**
***Bakı, 30 yanvar, 2015-ci il.***

Region PRESS

# RAFİQ HÜMMƏT - 50

## TƏBRİK EDİRİK!



***Hümmətov Rafiq Hümmət oğlu - şair, publisist, tərcüməçi.***

Rafiq Hümmət 1965-ci il fevralın 13-də Borçalıda - Gürcüstanın Bolnisi rayonunun Darvaz kəndində anadan olub. 1982-ci ildə doğma kəndində orta məktəbi, 1991-ci ildə S.S.Orbeliani adına Tbilisi Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirib. Həmin ildən etibarən bir müddət "Sovet Gürcüstanı" (indiki "Gürcüstan") və Rustavi şəhərində nəşr olunan "Region" qəzetlərində çalışıb. 1998-ci ildən bir neçə il Bakıda yaşayıb və burada bir çox mətbu orqanlarla, o cümlədən "Şərq", "Faktor", "Yeni Azərbaycan" qəzetləri ilə əməkdaşlıq edib, "Milliyət" qəzetinin baş redaktoru olub. 2000-ci ildə Azərbaycanda gənc yazarlar üçün təsis olunmuş Prezident təqaüdünə layiq görülüb. 2004-cü ildə Gürcüstana qayıdıb və Azərbaycan Yazıçılar Birliyi Gürcüstan bölməsinin sədri seçilib, dilimizdə "Ədəbi Gürcüstan" adlı qəzet nəşr etdirib. 2009-cu ilin yazından Tbilisidəki "Varlıq" Mədəniyyət Mərkəzinin sədri, "Varlıq" qəzetinin baş redaktorudur.

Rafiq Hümmət ədəbi-bədii yaradıcılıqla gənc vaxtlarından – ötən əsrin 80-ci illərindən məşğul olur. Bir neçə kitabın, o cümlədən "Salam, dünyanın yiyəsi..." adlı şeirlər kitabının müəllifidir. Onun toplayıb nəşrə hazırladığı irihəcmli "Ədəbi Gürcüstan" almanaxı ədəbi dairələrdə böyük maraqla qarşılanıb. Yüzdən çox kitaba redaktorluq edən R.Hümmətin rəhbərliyi ilə "Koroğlu" eposu, "Min bir Azərbaycan bayatısı" və "Hekayələr və nağıllar" toplusu iki dildə - gürcü və Azərbaycan dillərində hər biri ayrıca kitab halında nəşr olunub.

Bədii tərcümə ilə də məşğul olan Rafiq Hümmət çağdaş gürcü və rus poeziyasından bir çox nümunələri dilimizə çevirərək nəşr etdirib. Gürcü-Azərbaycan ədəbi əlaqələrinin inkişafında Rafiq Hümmətin xüsusi xidməti vardır.

Hörmətli eloğlumuzu anadan olmasının 50 illik yubileyi münasibəti ilə təbrik edir, ona sağlam və uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Musa NƏBİOĞLU**

***Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi tanınmış şair, publisist və tərcüməçi, Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsinin rəhbəri Rafiq Hümməti 50 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, can sağlığı, ailə xoşbəxtliyi və yaradıcılıq uğurları arzulayır.***

# "Kitabi-Dədə Qorqud" və Fridrix fon Dits – 200" beynəlxalq kollokviumu başa çatıb

***Yanvarın 31-də Bakı Slavyan Universitetində (BSU) Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) və BSU-nun birgə təşkilatçılığı ilə keçirilən "Kitabi-Dədə Qorqud" və Fridrix fon Dits – 200" beynəlxalq kollokviumunun bağlanış mərasimi olub.***

Tədbirdə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev bildirib ki, ikigünlük beynəlxalq kollokviumda müxtəlif ölkələrdən məşhur qorqudşünaslar, türkoloqlar, nəşriyyat rəhbərləri, araşdırmaçılar iştirak ediblər.

Akademik K.Abdullayev Azərbaycan şifahi xalq ədəbiyyatının qədim yazılı abidəsi, oğuz türk dastanı "Kitabi-Dədə Qorqud"un 1815-ci ildə alimi diplomatı və şərqşünası, türkoloq Fridrix fon Dits tərəfindən alman dilinə çevrilərək dünyaya tanıdılması və ilk dəfə tədqiqata cəlb edilməsinin 200-cü ildönümünə həsr olunan kollokviumun əhəmiyyətini xüsusi vurğulayıb.

Qeyd edilib ki, Azərbaycanda Dədə Qorqud irsinin daha dərindən öyrənilməsi və təbliği ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizdə "Kitabi-Dədə Qorqud" dastanına həsr olunan yüksək səviyyədə beynəlxalq kollokviumun keçirilməsi Prezident İlham Əliyevin bu möhtəşəm sənət abidəmizə göstərdiyi diqqət və qayğının parlaq nümunəsidir.

K.Abdullayev nəzərə çatdırıb ki, kollokvium çərçivəsində aparılan müzakirələr nəticəsində iştirakçıların təklifləri nəzərə alınmaqla "Kitabi-Dədə Qorqud" dastanının araşdırılması və ilboyu təbliğatının aparılmasının konkret fəaliyyət proqramı müəyyənləşdirilib. Həmçinin, 2015-ci ildə fəaliyyət proqramına uyğun olaraq dastanla bağlı müxtəlif qurumlarda və elmi müəssisələrdə, xarici ölkələrdə bir sıra tədbirlər keçiriləcək.

Akademik ölkəmizdə qorqudşünaslığa, "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlı keçirilən tədbirdə ilk dəfə Azərbaycanda yaşayan dini və milli icmaların nümayəndələrinin də iştirak etdiklərini söyləyib.

Bağlanış mərasimində çıxış edən akademiklər İsa Həbibbəyli, Tofiq Hacıyev, türkiyəli professor Hayati Dəvəli tədbirin əhəmiyyətindən danışıb, kollokviumun nəticələrinin uğurlu olacağına əminliklərini bildiriblər. Natiqlər xalqlar və mədəniyyətlər arasında mənəvi körpü rolunu oynayan bu cür görüşlərin mütəmadi keçirilməsinin vacibliyini vurğulayıblar.

Tədbir çərçivəsində Türkiyənin Yunus Əmrə İnstitutu ilə Bilik Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Bakı Slavyan Universiteti arasında birgə əməkdaşlığa dair niyyət protokolu imzalanıb.

Protokolu Türkiyənin Yunus Əmrə İnstitutunun rəhbəri, professor Hayati Develi, Bilik Fondunun icraçı direktoru Oqtay Səmədov, BBMM-nin icraçı direktoru Azad Məmmədov və BSU-nun rektoru, professor Asif Hacıyev imzalayıblar.

Sənəddə gələcəkdə birgə elmi, mədəni sahələrdə müxtəlif layihə və tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Sonda kollokvium iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul olunub.

**AzərTAc**



# Heyvanlar padşahının Eldoradosu

### (neqativ)

Ötən seçkilərlə bağlı bir "heyvanlar padşahı" ifadəsini işlətmişdim ki, onu da Mirzə Mikrob öz ütülü üstünə götürdü. Onda mən müdafiə məqsədi ilə vaxtilə "Əkinçi" qəzetinin – Allah Həsən bəy Zərdabiyə rəhmət eləsin! –yazdıqlarını manşetə çıxarmalı oldum; baxın: "Qədim zamanın filosofları deyirmişlər ki, insan heyvandır. Amma əqli artıq olmaq səbəbinə tamam heyvanların padşahıdır".

Bu "heyvanlar padşahı"nın babasının babası da Mirzə Cəlil Məmmədquluzadənin vaxtında (dəqiq: 1908-ci ildə) "nicat! nicat", "məktəb! məktəb" qışqırırmış. Mirzə Cəlil də ona: "Nicat" deməklə nicat yolu tapılmaz, "məktəb" bağırmaqla məktəb öz-özünə açılmaz" cavabını vermişdi və əlavə etmişdi ki, "...lazımdır mikrobları millətin bədənindən kənar eləmək".

İndi hər seçkidən öncə "Eldorado!" deyə bağıran Mirzə Mikroba Mirzə Qələm də, mən də necə arazbarı cavab verməyək? Amma bir məsələ də var ki, bu mikrobu "millətin bədənindən" kənarlaşdırmaq çətin olub. Çünki Mirzə Mikrob Allahı yad etməkdən üz döndərib və burası da aydındır ki – Quranda deyildiyitək – "kim Rəhman Allahı yad etməkdən üz döndərərsə, onunla yoldaş olmaq üçün ona bir şeytan təyin edərik". Yəni şeytanı ona biz təyin etməmişik, lazım bilən təyin edib.



...Eldorado – əfsanəvi sərvətlər və xariqələr ölkəsidir. Biz Mirzə Mikroba çox deyirik, o, az eşidir. Deyirik ki, biz Eldorado istəmirik. Bizə elə-belə ... arazbarı yaşamaq da kifayətdir. Əyriqarın ətəklərində bu bulaq suyu, bu dağ havası da bəsimizdir. O isə çox israrlıdır. Bizi təhdid edir ki, bəs deməzsənmi, mən sizin ictimai fəallığınızı artıracağam. Siz mütləq "Eldorado +" partiyasının üzvü olmalısınız.

Biz isə ona nə "sağçı", nə də "solçu", üstəlik, "düzənəqulu" olmadığımızı söyləyirik, sözümüzə qüvvət olaraq Eyvaz Borçalıdan sitat da gətiririk:

*Sağa gedirəm sağçı deyirlər,*
*Sola gedirəm solçu deyirlər.*
*Düz gedəndə də – düzənəqulu,*
*Yarı yoldamı qoyum bu yolu?*

...Məgər həyatımız dünyanın dərki ilə özünüdərkinin qovşağı deyilmi? Məgər insan öz bioloji tərəfindən dolayı, həm də mənəvi-əxlaqi varlıq deyilmi?

Şeytana yoldaş olanın gedib Mirzə Qələmdən qamqebeliyə (bizdə icra başçısının gürcücə təyini) xəbərçilik eləyənin elə bu dünyada Cənnəti itirməsinə niyə təəccüblənək ki? Bu neqativdə hər şey, eynən foto lentində olduğutək, tərsinə deyilmi? Ağ-qara, qara da ağ rəngində!

Həmvətənlərimizdə son vaxtlar yaqin ki, daha çox dünyanın divanə durumuna düşməsi ilə bağlı tez-tez işlənən bir "debil" (latınca: *debilis*) sözü var ki, bu da axmaq – özü də dərdinə əlac olmayan axmaq – səy yerinə qoyulanlar üçündür. Biz mikrob və virus təmizləyiciləri olaraq imkan verməyəcəyik ki, Mirzə Mikrob soydaşlarımızın "debilizasiyası" ilə bu qədər məşğul olsun, üstəlik, bu qədər məsxərəcünbaz məşğulluq mərkəzləri yaratsın...

***P.S. Deyilənə görə, Rusiyada Puşkinə qədər şairləri sürgünə göndərən yox imiş.***

***Mirzə Qələm iddia edir ki, qolu və ümidi qələm olanların sürgün tarixi bizdə Nəsimidən də öncə başlayıb.***

***Yaxşı ki, Mirzə Qələm də, mən də, olsa-olsa, bir Füzuli qırığıyıq. Nəsimi hara, biz hara? Mirzə Ələkbər Sabir demiş: bəxtimiz oğlan imiş! Yoxsa Mirzə Mikrob bizi çoxdan baba vətənimiz Altaylara atdırmışdı...***

**İBRAHİMXƏLİL**

# "XALQIN ŞƏXSİYYƏTLƏRƏ EHTİYACI VAR"

## *Xalq şairi Zəlimxan Yaqubla müsahibə*

**-Zəlimxan müəllim, söhbətimizə şeirlərinizin birindən bir beytlə körpü salmaq istəyirəm:**

***Yaşamaq istəyirəm, yüz il mənə bəs deyil,***
***Çünki mənim həvəsim ötəri həvəs deyil.***

**Bu ötəri olmayan həvəs 65 ildə istəklərinizi nə qədər reallaşdıra bilib?**

- 65 yaş şair üçün çox böyük ömürdü, böyük yaşdı. 65 yaşda gərək ürəyindən nə keçir hamısını eləyəsən. Təəssüflər olsun ki, ağrılar-acılar çox oldu. İstədiyim çox şeyləri edə bilmədim, amma arzular tükənmir, ümid tükənmir. Nə qədər Allah mənə ömür verib, o qədər yazmaq, yaratmaq istəyirəm. Çünki dünyada yaradıcı adam üçün yazmaqdan, yaratmaqdan şirin və gözəl heç nə yoxdu.

**-Hələ gənclik dövrünüzdə yazdığınız şeirlərdən birində deyirsiniz ki, mən indi bildim ki, zirvələrə çıxanlar, şöhrətiylə dağ şöhrəti yıxanlar nələr çəkib. Bəs bu gün necə düşünürsünüz, ucalmaq, şöhrətin ən uca zirvəsinə çatmaq, cəmiyyətdə tanınmaq, sevilmək Sizin üçün nə deməkdir? Özünüz öz şöhrətinizə kənardan baxanda necə görürsünüz?**

-Əlbəttə, insan halal şöhrətlə, halal zəhmətlə ucalanda, böyüyəndə həyat onun üçün çox şirin olur. Zirvə çox uzaqda, çox hündürdədi, hər adam o zirvəyə çata bilməz. Mən də müəyyən qədər nə etmişəmsə, o zirvələrin, ucalıqların əşqiylə, qarlı zirvələrin ucalığıyla böyüyüb o zirvələri öpmək, o zirvələrə çatmaq, onları aşmaq istəmişəm. Şükür Allaha ki, çox şeylər etdim, amma etmədiyim çox şeylər də qaldı.

**-Məşhur olmağın yaxşı və pis tərəfi nədir? Ümumiyyətlə, pis tərəfi varmı?**

-Mənə elə gəlir ki, məşhur olmağın pis tərəfi yoxdur. Bu günlərdə mən qonaq getmişdim. Şəmkirdən olan 83 yaşlı bir qadın nə qədər şeirimi bilir mənim?! İqtisadçıdır, ədəbiyyatçı da deyil. Deyir ki, sənin kitablarının hamısını oxumuşam və şeirlərimin çoxunu əzbər bilir. Heyran qaldım, yaşa bax, yaddaşa bax, şairə məhəbbətə bax.

**-Dostoyevski deyirdi: "Əsl böyük insanlar bu dünyada böyük kədəri duymalıdırlar". Sizcə, zamanəmizin böyük kədəri nədir?**

-Mən böyük kədər sözünü Azərbaycan daxilində Qarabağla bağlayıram. Bizim üçün, Azərbaycan xalqı üçün Qarabağ yarası qədər dərin, uçurumlarla, dərdlə, qəmlə, kədərlə dolu ikinci bir dərd yoxdu. Azərbaycan xalqının ən böyük dərdi Qarabağ dərdidir. Amma dünyanın dərdləri çoxdur. Şərq dağılır. Bağdada, Hələbə, Şama biz müqəddəs yerlər kimi baxmışıq. Onun üçünün də başında xata var, oralar hər gün dağılır, bombalanır, uçur, hər gün insanlar qırılır. Bundan böyük nə dərd ola bilər?!

**- M.Ə.Sabir deyirdi ki, "Sabir çörəksiz qalar, Nizamisiz yaşaya bilməz!" Cek London isə yazırdı: "Böyük şair həmişə özündən daha böyük başqa bir şairə hörmət etməlidir". Bəs sizin üçün böyük şair kimdir? Zəlimxan Yaqub hansı şairsiz yaşaya bilməz?**

- Bu sual çox ağır sualdı. Mənim çox sevdiyim şairlər var ki, onlarsız mən yaşaya bilmərəm. Onların içində Səməd Vurğun da var, Şəhriyar da, Ələsgər də, Füzuli də və adlarını çəkmədiyim digərləri də.

**-M.S.Ordubadi yazırdı: "Öz dilində şeiri olmayan xalqın nəyi ola bilər. Bir xalqın dil mədəniyyətini yaradan onun ədəbiyyatıdır". Hazırda bizdə şeir, ümumiyyətlə, ədəbiyyat hansı səviyyədədir?**

- Bu gün Azərbaycan ədəbiyyatında olan şeir məni qane eləmir, çünki insanlar kitabdan, milli ruhumuzdan, milli şüurumuzdan, milli təfəkkürümüzdən, dildən uzaqlaşır, dili bilmirlər. Ona görə də bugünkü mənzərə məni qane etmir, edə də bilməz.

**- P.Nerudanın belə bir fikri var: "Sağlam fikirli insanlar üçün şair olmaq nə qədər çətindirsə, şairlər üçün də ağıllı olmaq bir o qədər müşküldür. Amma əvvəl-axır şüur qələbə çalır. Çünki yer üzündə ancaq ədalətə istinad edən şüur qələbə çalır". Buna münasibətiniz?**

-Mən bu fikirlə razılaşıram. Şüur böyük məsələdi. Kimin şüuru yerindədisə, düşünür, fikirləşir, düşüncələrinə qol-qanad olur, axırda gəlir şüurun üstündə dayanır.

**- Yaxşı şair olmağın sirrini hərə bir şeydə görür. Məsələn, N.Fomiçiv yazır: "Yaxşı şair olmaq üçün gözəlliyin təbiətini anlamaq lazımdır". Bəs siz necə düşünürsünüz, yaxşı şair olmaq üçün nə etmək lazımdır?**

- Mən də eyni fikirdəyəm. Gözəlliyin təbiətində görən göz üçün, duyan ürək üçün hər şey var. Onu görmək, duymaq, yaşamaq lazımdır. Təbiət başdan-başa gözəlliklərlə doludur. Ona görə də şair nə qədər çox duyarsa, o qədər də irəli gedər.

**-Söz nədir, poeziya nədir, şair şəxsiyyəti nədir? Niyə hər şair həm də şəxsiyyət ola bilmir?**

- Əlbəttə, şəxsiyyət olmaq çox böyük şərəfdi, çox böyük ucalıqdı.

*Elmlə, ədəblə tapılar şərəf,*
*Mirvari olmasa, nə lazım sədəf.*

Bunu Füzuli təsadüfi deməyib. Şair birinci növbədə şəxsiyyət olmalıdır. Xalqın şairdən çox şəxsiyyətlərə ehtiyacı var. Tarix o şəxsiyyətlərlə ucalır, yaşayır, o şəxsiyyətlərlə böyüyür. Təəssüflər olsun ki, şair olan, amma şəxsiyyət olmayan adamlar çoxdur. Bunu görürük, duyuruq. Qəlbimiz ağrıyır ki, niyə belədi.

**-Latın Amerikası yazıçısı Varqas Lyosa yazır ki, ədəbiyyat gerçək həyatdan daxilən narazı olmağın məhsuludur. Siz bununla razısınızmı?**

-Razıyam. Həyatın gerçəkliyi çox acıdı, çox ağırdı. Sən bir adamı gözünün qabağına gətir, ona gözəl geyimdə, səliqəli duruşda bax, bir də onu soyundur çılpaq bax. Ona çılpaq baxanda istəristəməz insanda ikrah hissi, iyrənc, xoşagəlməz mənzərə yaranır. Ədəbiyyat da belədir. Nə qədər fikirlər, duyğular gözəl olsa, insan sevməksevilməklə yaşasa, o qədər dünya gözəlləşir, insan gözəlləşir.

**- Şeirlərinizin birində deyirsiniz ki, "mənim bircə dinim var, dinimin adı sevgi". Sevgi, ümumiyyətlə, bəşəriyyət və ədəbiyyat üçün nədir?**

- Sevgi bəşəriyyət üçün də, insan, millət üçün də ən böyük nemətdir. Ondan böyük nemət yoxdur. Sevməyən, sevilməyən heç vaxt ucala bilməz.

*Büdrəməsin heç kimin atı,*
*Bağrına bas kainatı.*
*Sev dünyanı, sev həyatı,*
*Sevənlərə ölüm yoxdur.*

Sevgisi olanlar ölənə qədər dünyada sevgi ilə yaşayır, sonra da dünyadan rahat gedir.

**- Uilyam Bleyk yazırdı ki, "Mənim əsərlərim yerdəkilərdən çox göydəkilərə bəllidir". Bəs sizin əsərlər yerdəkilərə çox bəllidir, yoxsa göydəkilərə?**

- Mənim yazdıqlarım həm yerdəkilərə, həm göydəkilərə bəllidir. Allah da, Tanrı da, mələklər də, yerdə olanlar da hamısı şeirlə, şeiriyyətlə, poetik duyğularla nəfəs alır.

**-Arxivinizdə işləyərkən 1996-cı ildəki qeyd dəftərinizdə belə bir qeyd diiqətimi çəkdi: "Tapılmamış qafiyə kimi, yazılmamış şeir kimi, oxunmamış nəğmə kimi həsrətindəyəm o kitabın! Tapacağam o qafiyəni, yazacağam o şeiri, oxuyacağam o nəğməni. Ümidim var, ümidim!"**

**O qafiyəni tapdınızmı, o şeiri yazdınızmı, o nəğməni oxudunuzmu?**

- Hələ də axtarışdayam.

**- İ.Nyuton deyirdi: "Mənim başqalarından uzaq görməyimin səbəbi nəhənglərin çiynində dayanmağım olmuşdur". Bəs sizin bu qədər şöhrət tapmağınızın, bütün Türk dünyasında sevilməyinizin səbəbi nədədir?**

- Sevgidir. Gərək insan sevsin. Mən də sevirəm – dünyanı, insanı, həyatı, keçmişi, gələcəyi.

**- Şöhrətli adamların şöhrətinə müvafiq gələn daha çox nədir: dərd, yoxsa sevinc?**

- Dərddi. Sevinc etibarsızdır. Dərd etibarlıdır.

*Dərd dondurar, buz kimidir,*
*Yara üstə duz kimidir.*
*Sevinc şıltaq qız kimidir,*
*Mənim dostum kədər imiş.*

**- Şeirlərinizin birində "kainata başdan-başa fikirdir, düşüncədir" deyirsiniz. Başdan-başa fikir, düşüncə olan dünyadan baş açmaq asandırmı?**

- Yox. Mürəkkəb hadisələr çoxdur.

**-Bir şeirinizdə isə deyirsiniz ki, "yüyürmə manat dalınca, bu dünya bir qara qəpiyə dəyməz". Doğrudanmı bu dünyanın bir qara qəpiklik qiyməti yoxdur?**

- Bu dünya həm həddindən çox qiymətlidi, həm də qiymətsizdi, yəni, etibarsızdır. Ölüm varsa, heç kəs döşünə döyə bilməz ki, mən nəyisə elədim. Ölüm hamısını aparır, qara torpağa qarışdırdır.

**-30 il bundan əvvəl yazdığınız şeirlərin birində belə bir bənd var:**

***Sıxar bu şəhər məni,***
***Eylər birtəhər məni.***
***Köhlən at istəyirəm,***
***Oynada yəhər məni.***

**Bu, bir gənclik istəyi idi, yoxsa bu gün də şəhər sizi sıxır? Ümumiyyətlə, şəhər sizi tez-tezmi sıxır? Niyə sıxır? Belə anlarda hara üz tutursunuz?**

-Şəhər məni həmişə sıxıb. Lap gənclik dövrlərində də sıxıb, indi də sıxır. Mən genişlik istəyirəm, dağ istəyirəm, bulaq, su, zirvənin qarını, uca dağları istəyirəm, bunların heç biri şəhərdə yoxdur. Şəhərdə şöhrət var, ucalıqlar var ki, biz onlara müəyyən qədər nail olmuşuq. Amma heç biri təbiətdə olan gözəlliklərin yerini verə bilməz.

**-"Kim gədədi gədəsindən danışar, kim dədədi dədəsindən danışar" – bu da sizin sözlərinizdir. Necə bilirsiniz, dünyada gədələr çoxdu, yoxsa dədələr?**

- Gədələr çoxdu, dədələr çox azdı. "Dədələr azalır, ay Dədə Şəmşir", – bunu elə-belə deməmişəm. Gədələr dünyayla birdi, dədələr azdı.

**- Etiraf sizin üçün nə deməkdir. İnsan daha çox hansı halda və nəyi mütləq etiraf etməlidir?**



- Etiraf həmişə olmur. İnsan ömründə bir dəfə etiraf etməli olur. Ölümə yaxın vəziyyət yarananda insan günahlarını, səhvlərini, nöqsanlarını, uğursuzluqlarını dərk edir və onu əziz adamına danışır. Etiraf etmək böyük məsələdi, hər adam etiraf edə bilməz. Çox adam sirri özü ilə aparır. Etiraf çox müqəddəs işdir. İnsan durulur, təmizlənir, gözəlləşir, paklaşır, etiraf etdikcə yüngülləşir.

**- "Dünya məni bulandıra bilmədi, Mən dünyanı durultmağa gəlmişəm", - deyən şair dünyanı durulda bilirmi?**

- Şair nə qədər dillərdə gəzirsə, el məhəbbəti qazanırsa, o qədər durulur duyğuları, ürəkləri, baxışları. Yəni, mən çalışdım ki, bütün həyatım boyu dünyanı durultmaqla məşğul olum. Nə qədər durultdum, nə qədər saflaşdırdım, onu gələcək nəsillər, yazdığım şeirlər deyəcək.

**-Bir vaxtlar yazırdınız ki, "xeyir Günəş kimi başım üstədir, şər gəlib dövrəmdə dolanan deyil". Bəs indi necə düşünürsünüz, şərin, böhtanın sizə yaxın düşə bildiyi vaxt olubmu?**

- Çox oldu, az yox, çox. Mənimlə bağlı yazılan yalan yazılar oldu. Böhtanı da gördüm, şəri də, başıma gəlməyən şeyləri də gördüm. Onlar mənə çox pis təsir elədi, amma özümdə yaşatdım, heç kəsə demədim.

**- On il Milli Məclisin üzvü oldunuz. Bu illərin siz verdiyi nə oldu, aldığı nə?**

- O dövr mənə çox şey verdi. İstər yaradıcılıqda, istər dünyagörüşündə, istər dünyanı tanımaqda parlament dövrü mənim üçün çox parlaq bir dövr oldu. Heç vaxt mən ordan ziyan görmədim, həmişə xeyir gördüm. Yaxşı mənada dünyanı gözəl gördüm, dünyanın müxtəlif yerlərinə səyahətə çıxdım, gözəl əsərlər yazdım. Heç yerdən Azərbaycana əliboş qayıtmadım, gözəl əsərlərlə gəldim. Bu şəraiti də mənə parlament həyatı yaşatdı.

**- Dünyanın bir çox məşhur adamları, dövlət xadimləri ilə görüşmüsünüz. Yaddaqalan nə kimi xatirələriniz var?**

- O görüşlərdən yaddaqalan çox şeylər var. Mənim üçün ən böyük xatirə haqqında ən şərəfli kitablarımdan birini yazdığım Heydər Əliyevlə olan səfərlərimiz, məclislərimiz, söhbətlərimiz, şəxsi görüşlərimizdir. Türk dünyasının bütün dövlət başçıları ilə görüşmüşəm. Onun hamısının səbəbkarı Heydər Əliyev olub.

**- Sizin fenomenal yaddaşınız hər kəsi heyran edir. Necə düşünürsünüz, bu, gərgin zəhmətin, ardıcıl mütaliənin nəticəsidir, yoxsa Allah vergisidir?**

-Birinci Allah vergisidir, sonra da gərgin zəhmətin, ilhamın vergisidir. Mən həmişə yaddaşımı tərbiyə etmişəm. Bədən tərbiyəsi kimi, yaddaşın da tərbiyəsi olur. Gərək onu həmişə qoruyasan, gözəl saxlayasan.

**- Siz çox dinamik bir adamsızınız. Demək olar ki, hər gün müxtəlif görüşlərdə, yubiley və digər tədbirlərdə iştirak edirsiniz, xeyirdən-şərdən qalmırsınız. Bütün bunlardan sonra mütaliəyə və yaradıcılığa necə vaxt çatdırırsınız? Ümumiyyətlə, vaxt sizin üçün nə deməkdir?**

- Mənim itirdiyim vaxtlar da çox olub, yaxşı yaradıcılıqla məşğul olduğum vaxtlar da çox olub. İtkilərə yanmamışam, bu itkilərin özündə də bir qazanc görmüşəm. Yaxşı mənada tapıntılarım çox olub. Şeirin, sənətin, yazdıqlarımın, mütaliənin, müşahidənin qulu olmuşam həmişə. Bu da mənə çox şey verib.

**-Çingiz Aytmatov deyir: "Bu cavanlara yazığım gəlir. Onlar öz insanlıq sirlərinə necə yetə biləcəklər ki, onların heç birinin heç olmasa xəyalən Allah olmaq dərəcəsinə yüksəlmək üçün heç bir imkanları yoxdur". Siz necə düşünürsünüz?**

-Mənim çox sevdiyim, yaradıcılığını az qala əzbər bildiyim Çingiz Aytmatovun dediyi çox düzdür, doğrudur. Üz tutmağa yer lazımdır, dərd açmağa ağsaqqal lazımdır, söhbət etməyə həmsöhbət lazımdır. Təəssüflər olsun ki, bunlar seyrəlir.

**- N.F.Qısakürək belə bir fikir söyləmişdir: "Cəmiyyət öz daxili dünyasında yatır, amma yuxusunu şairlər görür, yozur". Bəs gün cəmiyyətin yuxusunu hansı səmtə yozmaq olar?**

- Bu gün cəmiyyətin yuxuları çox qarışıq yuxulardır. Onu bir cümlə ilə, bir fikirlə izah etməz olmaz. Dünya çox pis hallar keçirir, Şərq batır, dünyanın ən gözəl ölkələri dağılır. Adını demokratik qoyan ölkələr var ki, ən qeyri-demokratik ölkələrdir, amma özünü demokratik ölkə kimi tanıdır. Allah özü sonundan saxlasın!

**- P.Neruda yazır: "İlhama bu qədər bel bağlamaq olmazmış. Məni zorla görünən cığırlarla ancaq şüur irəli aparmalıdır". Siz necə düşünürsünüz, yaradıcı adam üçün təkcə ilham kifayətdirmi?**

- Yox. Zəhmət, zəhmət, zəhmət. Bunu Folkner deyib, çox yaxşı deyib. Zəhmət yazıçı, şair üçün hər şey deməkdir. Təkcə ilhamla məsələ həll olmur.

**-N.F.Qısakürək yazırdı:**

***Bizə qalan əziz borc əsrlik zamanlardan,***
***Tarixi təmizləmək saxta qəhrəmanlardan.***

**Necə bilirsiniz, müstəqilliyin bizə verdiyi imkandan istifadə edib tariximizi saxta qəhrəmanlardan təmizləyə bilmişikmi?**

- Ən böyük vəzifə tarixi o saxta qəhrəmanlardan təmizləməkdi. Türk dünyasının çox böyük şairi Nəcib Fazil çox gözəl deyib. Tarixi saxta qəhrəmanlardan təmizləmək üçün təmizləri, halalları, düzləri, dürüstləri önə çəkməliyik, onların qədrini bilməliyik, onda saxta qəhrəmanlar öz-özünə gedər, sıradan çıxar.

**-"Nəvələr nə qədər şöhrət tapsa da, ulu babalara ehtiyacı var", - deyirsiniz. Bu gün bu ehtiyacı ödəyəcək babalar varmı?**

-Azdı, həddən çox azdı, seyrəkdi. Nəvələrin axırı nə olacaq, onu Allah bilir. Çünki bizim gördüyümüz, eşitdiyimiz, duyduğumuz, yaşadığımız çox nemətlərdən indiki uşaqlar halı deyil. Elə kompyuter, telefon... Bəs o dağ, o daş, bulaq, kainat, təbiət, adət-ənənələr hanı? Hamısı itib-batıb gedir.

***- O günlər əlindən tutası deyil,***
***Əli o günlərə çatası deyil.***
***Onda dörd övladın atası deyil,***
***Zəlimxan utancaq bir uşağıydı.***

**O utancaq Zəlimxan Xalq şairi Zəlimxan Yaquba necə baxır və Xalq şairi həmin utancaq uşağı necə xatırlayır?**

-Mən o utancaq Zəlimxana çox yaxşı baxıram, utancaq Zəlimxanın Xalq şairinə baxmağını da qürur hissi ilə yaşayıram. Allaha şükür ki, mən bu arzuma çatmışam. Bunu dövlət edib, Heydər Əliyev edib, İlham Əliyev edib, xalqımızın qədirbilən oğulları edib.

**-Zəlimxan müəllim, maraqlı müsahibəyə görə təşəkkürümüzü bildirir və Sizi 65 illik yubileyiniz münasibəti ilə təbrik edirik.**

***Müsahibəni apardı:*** **Musa Nəbioğlu**

# Mənsur oğlu



Maşını yanında saxladım, şüşəni aşağı salıb:

– Salaməleyküm, Məsim müəllim – dedim. Gəl əyləş, mən də aşağı gedirəm.

O, ehmalla qabaq qapını açıb oturdu. Qaməti əvvəlki kimi şax olsa da, hərəkətlərində, xüsusən yerişində bir lənglik, baxışlarında çaşqınlıq var idi. "İllər öz işini görür" deyə fikirləşdim.

Hər gün səhər-səhər kənd Mədəniyyət evinin həyətində fəaliyyət göstərən çayxanaya piyada gedib-gəlmək neçə illərdir ki, onda adət halına çevrilib. Evdə tək oturmaq, xüsusən, həyat yoldaşı rəhmətə getdikdən sonra, yəqin ki, ona da çətin gəlir...

– Yenə çayxanayamı, Məsim dayı?

– Hə, - deyə gülümsündü, - özgə hara gedəsiyəm bu zaman?

Rayondakı tanışları soruşdu. Fazil müəllimə, Teymur Beridzeyə salam göndərdi.

– Eh, bizim tay-tuşlardan demək olar ki, heç kim qalmayıb, - deyə köksünü ötürdü.

Yadıma 80-ci illərin haylı-haraylı günləri düşdü. Rayonumuz sanki qaynayırdı. Təsərrüfatların hamısında qızğın işlər gedir, sovxozlar arasında dövlət tapşırıqlarının yerinə yetirilməsi uğrunda xüsusi sözün yaxşı mənasında, rəqabət gedirdi. Rayonun ən iri təsərrüfatlarından biri və bəlkə də, birincisi Məsim Məmmədovun rəhbərlik etdiyi Sadaxlı meyvə və tərəvəzçilik sovxozu idi. Təkcə onu demək kifayətdir ki, 1200-dən çox fəhlə və qulluqçusu olan sovxozun əkin sahələrinin sahəsi 1250 ha əhatə edirdi. Sovxoz hər il dövlətə 11-12 min ton tərəvəz, 1,5-2 min ton meyvə, 350 ton süd, 65 ton ət təhvil verirdi. Bu qazandığı naliyyətlərə görə Sadaxlı meyvə-tərəvəzçilik sovxozunun kollektivi dəfələrlə Keçici Qırmızı bayraqlar almış, sovxozun direktoru Məsim Məmmədov isə "Oktyabr İnqilabı", "Şərəf" ordeni, "Qırmızı Bayraq" ordenləri ilə təltif olunmuş, müxtəlif medallar və mükafatlara layiq görülmüşdü. Onun rəhbərlik etdiyi dövrdə rayonun ən böyük mədəniyyət ocaqlarından olan Sadaxlı Mədəniyyət evi inşa edilmiş, müxtəlif iaşə obyektləri tikilmiş, 700 ha əkin sahəsini suvarmağa qadir olan iki nasos kompleksi qurulmuşdu. Bu işlərin görülməsində Məsim Mənsur oğlunun şəxsi əlaqələrinin böyük rolu var idi. Gürcüstan KP MK-nın birinci katibi C.Patiaşvili, müxtəlif dövrlərdə rayonumuza rəhbərlik etmiş D.Mağalaşvili və R.Memarnişvili, eləcə də bir çox nazirlər və vəzifəli şəxslər onun yaxın dostları idi.

Məsim müəllim 1935-ci ildə Borçalı mahalının Sadaxlı kəndində zəhmətkeş bir ailədə anadan olmuşdur. Atası Mənsur kişi dülgər idi. Kənd təsərrüfatının inkişaf illəri Məsim Mənsur oğlunun gənclik illərinə təsadüf edirdi və bu sahəyə olan marağı 1948-ci ildə səkkizillik məktəbi bitirdikdən sonra onu Bolnisi (o vaxtkı Lüksemburq) kənd təsərrüfatı texnikumuna gətirib çıxarmışdı. Texnikumu bitirdikdən sonra Kirovabad (indiki Gəncə) Kənd Təsərrüfatı İnstitutunda (1950-1955) təhsilini davam etdirmiş, ali məktəbi bitirdikdən sonra təyinatla doğma kəndi Sadaxlıya qayıdaraq kolxoza baş aqronom təyin olunmuşdur. 1964-cü ildə kolxoz quruluşu ləğv olundu və Sadaxlı sovxozu yaradıldı. Bacarıqlı rəhbər və təcrübəli təsərrüfat işçisi olan İmran Kərimov sovxoza direktor təyin olundu. Onun rəhbərlik etdiyi müddətdə kənddə böyük işlər görübdü. Neçə-neçə ictimai-iaşə obyektləri, məktəb binası inşa edildi, abadlıq işləri görüldü. 1971-ci ildə rayona başqa bir rəhbər vəzifəyə keçirilən İmran Kərim oğlu tərəddüd etmədən sovxozun baş aqronomu Məsim Məmmədovu öz yerinə namizəd göstərdi. O, 1971-1992-ci illərdə və 1994-1998-ci illərdə sovxoza rəhbərlik etdi. Məhz bu dövrdə sovxozda fəaliyyət göstərən şöbələrin sayı 4-ə, briqadaların sayı 24-ə çatdı, sovxozun əkin sahələrində 480 hektarlıq meyvə bağları salındı.

Məsim müəllimin xüsusi idarəçilik metodu var idi. Yüksək təşkilatçılıq və rəhbərlik qabiliyyətinə malik idi. Kəndin ən bacarıqlı, təsərrüfatı yaxşı bilən şəxsləri briqadir kimi fəaliyyət göstərirdilər. Hamının fəaliyyəti xüsusi nəzarət altında idi. Məsim müəllim kəndin ən yüksək ərazilərindən hamının işinə nəzarət edə bilirdi. Bunun üçün xüsusi binoklu da var idi. Onun iş metodu mənə məşhur marşal Q.Jukovun sözlərini xatırladırdı: "Orduya mən və serjant rəhbərlik edirik".

1988-ci ilin noyabr ayı hamımızın yaddaşında qara hərflərlə həkk olunub. Məhz bu dövrdə soydaşlarımız Ermənistandan deportasiya olundular. Sadaxlıyla həmsərhəd olan qonşu Noemberyan rayonu ərazisindəki minlərlə azərbaycanlı da bu haqsızlığa məruz qaldılar. Öz doğma ata-baba yurdlarından qovuldular. Məhz bu dövrdə onlara ilk kömək əlini uzadanlardan biri də Məsim Mənsur oğlu oldu. O, böyük risk hesabına dəfələrlə milisin müşayiəti ilə Noemberyana səfər etdi, sərhəddə yerləşən Ləmbəli və digər kəndlərin köçürülməsi barədə rayon rəhbərliyi ilə razılığa gəldi. Lakin sonradan qarşı tərəf vədinə əməl etmədi. Şəxsən Məsim müəllimin təşəbbüsü və maddi yardımı ilə Ləmbəli sakinlərindən üç nəfər – başda əfsanəvi partizan Cavad Həkimli olmaqla Sov. İKP MK-nın katiblərindən birinin qəbuluna düşmək ümidi ilə Moskvaya göndərildilər. Lakin bu cəhdlər də bir nəticə vermədi. Yüzlərlə ailəyə Sadaxlı və ətraf kəndlərdəki ailələrdə sığınacaq verildi. Bu işlər Məsim Məmmədovun gərgin əməyi və rəhbərliyi altında icra olunurdu. Sonradan köçkünlərin Qazağa köçürülməsi də onun təşkil etdiyi 8 avtobus vasitəsilə həyata keçirildi. Hər bir ailəyə maddi yardım edildi. Neçə illər keçməsinə baxmayaraq, Ləmbəlinin və digər ətraf kəndlərin əhalisi Məsim müəllimin adını minnətdarlıqla yad edirlər.

Məsim Mənsur oğlu xüsusi xaraktera malik bir rəhbər idi. Çox danışmağı, lovğalanmağı sevməzdi. İşdə nə qədər ciddi olsa da, işdənkənar vaxtlarda kollektivlə birlikdə müxtəlif tədbir və mərasimlərdə iştirak edərdi. Bəkir Dəmirçəlov, Vaqif Mustafayev, Fərhad Cəlilov, Arif Məsməliyev, Hümbət Nəzərov, Akif Bediyev və digər perspektivli gənclərin yaxşı kadr kimi yetişməsində və məsul vəzifələrdə çalışmasında Məsim müəllimin "məktəb"inin böyük rolu olmuşdur.



Məsim Məmmədovun rəhbərlik etdiyi illərdə Sadaxlı kəndi neçə-neçə tədbirlərin şahidi olmuş, neçə-neçə məşhur elm və incəsənət xadimlərini yüksək qonaqpərvərliklə qəbul etmişdir. Bu görüşlərdən onun yaddaşında ən əziz xatirə kimi həkk olunanı dünya şöhrətli maestro Niyazinin Sadaxlı camaatının görüşünə gəlməsi idi. Bu görüşdə çəkilmiş şəkillər bu gün də Məsim müəllimin arxivində saxlanılır.

**P.S.**

***Görüşümüzün sonunda Məsim müəllimdən soruşdum:***

***– Həyatda nədənsə narazısanmı, Məsim dayı?***

***– Yox, heç nədən heç bir narazılığım yoxdur. Allaha çox şükür.***

***Bəxtiyar Vahabzadənin bir şeiri var:***

*Bu ana vətənin qırıq telli sazıyam,*
*Bir işimdən razıyam ki, özümdən narazıyam.*

***– Hə, o mənada düzdür. Daha çox işlər görmək olardı.***

**P.S.S.**

***Fevralın 15-ində Məsim Mənsur oğlunun 85 yaşı tamam olur. Onu ürəkdən təbrik edir, uzun ömür, can sağlığı arzulayırıq.***

**Həsən Abbasoğlu**

# Ürəyi qabar edən barmaqlar

## (Ucqar havası)

Ucqar sözümün toz-tozanaq, az-az da arazbarı təkrarına bir də qayıdıram...

...Bir padşah başqa bir padşaha şikayətlənir ki, bəs deməzsənmi, sənin öfkəli ölkənin filan mırıq məmuru mənim öfkəli ölkəmin ünvanına olmazın ilqarsız ifadələr işlədir. Şələquyruq şikayətləri diqqətlə dinləyən padşah da cavab verir ki, heç qəm yemə, o ibarəbazın pasportu ha yoxdur! Sən demə, həmin məmləkətdə təkcə bir ölkədən başqa bir ölkəyə getmək üçün deyil, eyni zamanda sözü məmləkətin həm daxilində, həm də xaricində keçərli və ötkün olan söz sahibləri üçün də xüsusi xarici pasportlar – təxminən indiki diplomatik pasportlar misallı – mövcud imiş. Məxsusi "xarici pasport"u olmayanın dedikləri, elə yazdıqları da, eləcə havadan asılı qalırmış (məmləkətdə havanın ağırlığının bir səbəbi də sən demə elə bu imiş), yalnız ölkənin daxilində keçərli olurmuş. Yəni – misilləmə misal üçün – əgər o ölkə, Allah eləməsin, Gürcüstan imişsə, söz Sınıq körpüdən o yana, əgər o ölkə, yenə də Allah eləməsin, Azərbaycan imişsə, söz Biləcəridən o üzə keçmirmiş...

İndi mən içimdə bir növ "Sokrat pasportu" adlandırdığım o "xarici pasport" haqqında damcı-damcı düşüncələrə dalaraq Tiflis dəmiryol vağzalında yazıçı dostum Əlabbası gözləyirəm. Əlabbas şair Avdı Qoşqarla birlikdə Borjomiyə istirahətə, başqa sözlə, yaradıcılıq ezamiyyətinə gəlir. Həm də ucqar ümidlərimin qatarı olan Bakı qatarının gəlməyinə hələ var. Arada-sırada kassalara və kassaçılara da baxıram və qəfildən Anarın "Ağ liman"ından Neməti xatırlayıram: "Kassaçı Səfdər dayı eynəyinin ardından mağmın-mağmın Nemətə baxdı, sonra zəhmlə soruşdu: – Bakıya getmək icazən var?"

Ustad söz sahibi olmaq, heç vaxt "səsi alınmamaq" mənasında, Əlabbasın hər zaman Tiflisə gəlmək haqqı var. Təki cansağlığı olsun!

Bəlkə də adamların "qaralama" variantında doğulduqları səbəbindəndir ki, çox adam "ağlama" variantına ömürbillah keçə bilmir. Amma Əlabbas, mübarək mübaliğəyə oxşar olsa da, çoxdan, hətta doğulduğu ildən də qabaq "ağlama" variantında olan nasirlərimizdəndir. O, özünün "Əlli ilin müəmması"nda yazır: "...ortada olan... yazı-pozularımın qaralaması imiş; bu yaşda özümə ayıb bilərəm ki, saygılı və sadiq oxucularımın başını qaralama ilə aldadam".



Sınıq körpünün bəri üzündə "sadiq və saygılı" oxucu olaraq deyə bilərəm ki, mənim ümumiyyətlə, ilin, yaxud qərinənin, ya da əsrin "ədəbi hadisəsi" ifadəsi ilə könül xoşluğum yoxdur. Amma zənnimcə, onun "Qiyamçı" romanı təkcə Naxçıvanın "ədəbi hadisəsi" adını almaq statusunu uçurumların dərininə çoxdan atıb. Mən bunu Borçalı Əyriqarının – əlbəttə, düzülqarlı Əyriqarının – ətəklərindən Göyçə tərəflərə hər dəfə hüznlü, həm də ucqar-ucqar pıçıltılarla çatdırmışam... Çünki romanda sanki həm də Borçalı Əyriqarının ətəklərində baş verən məlum-müşkül köçmə-köçürülmə hadisələri qələmə alınıb. "Qiyamçı"nın qəhrəmanı Təbrizlə Borçalı Əyriqarının "qiyamçı"sı Mirzə Qələmin "qan" və ruh qohumluğunu, Axirət qazancını kim Əlabbas kimi qayimməqam qələmə alıb? İnsanın həyatında ən böyük itki ümidi itirmək olduğuna görə, Təbrizin Naxçıvan Əyriqarında, Mirzə Qələmin də Borçalı Əyriqarında qalıb, köçənlərlə köçməməyi Bakıda Əlabbasın, dünyanın ucqar deyilən yerində də mənim ümidimi itməyə qoymadı. Hamının köçüb getdiyi bir vaxtda qalıb baba ocağını sönməyə qoymamaq! Məgər bu "ənənəvi" olmayan qiyamda, üsyanda oralarda Təbrizin, buralarda Mirzə Qələmin vücudu ilə vətən məhəbbətinin şirinliyi çulğaşıb qarışmayıbmı?

Əlabbasın özünün dediyinə görə, o, 1993-cü ildə çıxan kitabını unudulmaz Natiq Səfərova bu avtoqrafla hədiyyə edibmiş: "...zəif cüssəsində qüdrətli bir qladiator naturası yaşayan Natiq müəllimə". Məncə burada "qladiator" əvəzinə elə "qiyamçı" da ola bilərdi. Və yenə də misilləmə misal üçün bunu da deyim ki, Sabir Bəşirovun Əlabbas haqqında "Əlabbas: Sözün köhnə kişi"si adlı kitabında dediyi "Azərbaycanın ən ucqar kəndi də bir nəfər istedadlı, ləyaqətli insan yetirirsə, o kənd bizim mənəviyyatımızın paytaxtlarındandır" fikri ilə də qətiyyətlə razıyam. Qətiyyən bundan incimək haqqım da yoxdur ki, bəs deməzsənmi, orada "Gürcüstanın ucqar kəndi" ifadəsinə rast gəlinmir. Məgər fəlsəfənin filhəqiqət mənasına görə, Natiq Səfərov da, Sabir Bəşirov da, Əlabbasın özü də, arada-sırada Sınıq körpünün bəri üzündə öz ucqar havamla birgə mən özüm də ..."qiamçı" deyilikmi? Amma bu qiyam, bu qiyamçılıq heç zaman küfrə gedib çıxmayıb, bidətə, batilə qarşı olmaqdan dolayı, sadəcə olaraq "qaralama"dan "ağlama"ya addamağı alıb günahlardan çəkinən gözlərinin altına!

Mənim vaqif yazarların əllərinə, qələm tutan əllərinə beyət və bəsirətlə baxmağım da var və qoca Tiflisin variasiyalarla dolu vağzalında Əlabbasın əlinə baxmağım o ürbənd üzdən deyil ki, görüm mənə can Azərbaycanın pürəfşun paytaxtından hansı əzmə-büzmə ərməğanlar gətirib. Əstəğfürullah! Məsələ burasındadır ki, dünən Süsən-Sünbül yolunda Mirzə Halaypozan iddia edirdi ki, onun muğbeçə mənur oğlunun beş barmağının beşi də şəhadət barmağıdır: əlbəttə, əmr etmək, guya yol-ərkan göstərmək, amiranəlik, zəhmini-zorunu bildirmək üçün beş barmağının beşi də guya "şəhadət barmağı" olan yumruğunu stola çırpmaq mənasında...

...Əlabbasın "qaralama" deyil, "ağlama" müəllifi olan barmaqları, əllərini yox, ürəyini qabar edən barmaqlar bəlağətdən və bəd yozumlardan və böyüklükdən xəbər verirdi.

Mən eyni yarıalmatək oxşar minvalla İsmayıl Şıxlının, İsa İsmayılzadənin, Yusif Səmədoğlunun, Anarın, Zəlimxan Yaqubun, Fikrət Qocanın, Çingiz Abdullayevin, Fikrət Sadığın, Vaqif Səmədoğlunun, Vaqif Bayatlının, Afaq xanım Məsudun, Əjdər Olun, Nəriman Əbdülrəhmanlının, Fəxri Uğurlunun, İlqar Fəhminin, Elçin Hüseynbəylinin, Azər Abdullanın, Əlizadə Nurinin – siyahını Zəncandan Ərzincana uzatmağa nə ehtiyac? – qələm tutan barmaqlarını da görmüşəm; bəziləri ilə əl tutub görüşmüşəm də! İnananlar daşa dönməsələr də, Bakıda başucalığı əl tutub görüşməyimə Əyriqarın ətəklərində inanan olsa-olsa Mirzə Qələm olub. "Yaxşı-yaxşı, get, Yağı qoruğunda otunu otla, bala, – deyiblər, – get baş qatmağa başıdümük başqa adam axtar. Səməd Vurğunun oğlu hara, sən hara"?

Bütün hallarda, can Azərbaycanın canlaradəyən paytaxtını deyə bilmərəm, amma əyalətdə, dünyanın ucqar dediyim yerində vaqif adamların qələm tutan əllərini tutmağın dadı-tamı, bərəkəti bir özgədir! Arada-sırada hətta. Axirəzzamanda ən az tapılan şey olan "halal bir dirhəm" qədərdir!

**P.S.**

***Əlabbasın doğulduğu Şahbuz tərəfləri, Naxçıvan Əyriqarını deyə bilmərəm, amma Sınıq körpünün bəri üzündəki Borçalı Əyriqarı tərəflərdə "qaralama" variantından və qara-qura qaramatdan heç cürə çıxa bilməyən bir nəfər "Brilyant Qələm" mükafatı laureatı Allahın fağırı olan Mirzə Qələmi lağa qoyub ləkələməyə başlayanda Mirzə Səməndər (Allah unudulmaz Cəfər Cabbarlıya rəhmət eləsin) qanrılıb ona belə dənizulduzu sözlər demişdi: – Sən heç Mirzə Qələmin çeçələ barmağı, kəsinti dırnağı da ola bilməzsən!***

***...İndi milad təqvimi ilə yeni ilin astanasında Əlabbasın çeçələ barmağından onun qələminin ucundakı ümidlərinə neçə ünlü ümidvarlıqlar keçdiyini Bakıdan bu qədər uzaqlarda gözəl, həm də çox gözəl görürəm....***

**İbrahimxəlil**

# Gənc rəqqasənin arzudan reallığa çevrilən uğuru

***İncəsənət insan hisslərini təsvir edən vasitələrdən biridir. Həmçinin istənilən fəaliyyət sahəsində insanın göstərdiyi yüksək bacarıq, məharət də nəzərdə tutulur.***



Rəqs də incəsənətin qollarından biridir. Rəqs, hansısa ağla gələn bir hərəkət deyil, həyatın özudu. Məhz bu hərəkətlərlə insanlar bir çox məqamları izah edər və ya daxili aləmlərini aça bilərlər.Hələ qədimdən bu günə kimi Azərbaycan milli rəqsləri mövcuddur. Rəqsləri yeni nəslə tanıdan, davam etdirən insanlar həmişə olublar.

Aygün Həsənova da Azərbaycan milli incəsənətinin və rəqslərinin davamçılarından biridir. Aygün 1994-cü ildə Marneuli şəhərində anadan olub.Marneuli 3 saylı orta məktəbini bitirib. Kiçik yaşlarından rəqsə, səhnəyə böyük marağı olan balaca Aygün bu gün böyüyüb və incəsənətimizin, milli rəqslərimizin mahir ifaçısıdır.

Kiçik yaşdan rəqs eləməyi çox sevən balaca Aygün məktəbdə keçirilən tədbirlərdə çıxış edərmiş. Hər zaman bu peşə Aygün üçün əlçatmaz görünürmüş. Çünki o zamanlar, bölgəmizdə milli rəqslərimiz tədris olunmurdu. Aygün 7-ci sinifdə oxuyarkən məktəb müəlliməsinin təklifi ilə Azərbaycanlıların Mədəniyyət Mərkəzinin nəzdində yenicə fəaliyyətə başlamış “Sarvan” folklor rəqs ansamblına yollanır. Elə həmin gündən balaca Aygün uğura gedən ilk adımmlarını atmaga başlayıb.



Rəqsə başladıqdan sonra az müddətdə o, ilk səhnə təcrübəsini yaşayıb.

Müəllimləri 3-4 nəfər qız toplayıb və müəyyən rəqs hərəkətlərini təkrar etdirib. Hər kəs sırayla təkrar edib. Axırda məlum olub ki, məhz bu hərəkətlər “Sarı gəlin” rəqsinə məxsus imiş və müəlliməsinin seçimi Aygündə yekunlaşıb. Beləliklə, səhnəyə ilk addımını “Sarı gəlin” rəqsi ilə atıb. Sonra festivala dəvət alıblar. Aygün çox həyəcanlı imiş və müəlliminin ona necə umidlə və qürurla baxdığını görərək, rəqsini böyük məharətlə ifa edir. Həyəcanla çıxışların bitməyini gözləyirlər və münsiflər qərarlarını açıqlamağa başlayıb:“Aygün Həsənova, solo nominasiya – I yer!“-deyəndə onların sevincinin həddi yox imiş. Məhz həmin gün Aygünün rəqsi “Sarvan” ansamblına ilk mükafatı qazandırıb. Gənc rəqqasə 14 yaşında “Qızıl medal” mükafatçısı olub.

Hal-hazırda Aygün “Sarvan” folklor ansamblında xoreoqraf olaraq çalışır. Sadəcə milli rəqslərimizi deyil, eyni zamanda gürcü rəqslərini də təbliğ edir. “Sarvan” folklor ansamblı Gürcüstanda keçirilən bir çox beynəlxalq festivallara qatılaraq milli rəqslərimizi nümayiş etdirir. O, Türkiyənin müxtəlif şəhərlərində həm milli, həm də gürcü rəqsləri ilə çıxış edib və mükafatlar qazanıb. Eyni zamanda, 2014-cü ildə UNESCO-nun nəzdində olan CİD-anın (Rəqs şöbəsinin) üzvü seçilib. Bu yolda Aygünə dəstək olan insanlar da olub. Azərbaycanlıların Mədəniyyət Mərkəzinin, həmişə arxasında duran ailəsinin, ən əsasıda, həmişə onu cəsarətləndirən, uğur nərdivanlarında əlindən tutub onunla addımlayan “Sarvan” folklor ansamblının qurucusu Cəmilə Məmmədovanın zəhmətini xüsusi olaraq qeyd edir.



“Milli rəqslərimiz mədəniyyətimizin ən gözəl və mühüm qollarından biridir. Onlar tariximizin qədimliyini, həyat və məişət tərzimizi nümayiş etdirir. Mən də sevinirəm ki, qədim xalqımızın irsinin daşıyıcısı və təmsilçisiyəm” - deyir Aygün Həsənova.

İncəsənətimiz və mədəniyyətimiz o qədər zərif, gözəldir ki, bunu nəsildən-nəsilə ötürmək bizim borcumuzdur. Günümüzdə gənclərin millətinə olan sevgisi, hörməti böyuk əhəmiyyət daşıyır. Nə xoşbəxt bizlərə ki, gənclərimizə millətimizin, mədəniyyətimizin dəyərlərini oyrədən müuəllimlərimiz var. Çünki muəllimlər gərək elə öyrətsinlər ki, gələcəyimiz işıqlı olsun; necə ki, atalarımız deyib: “nə əkərsən, onu da biçərsən”.

**Şəlalə Əmircanova**

# “Rənglərin yağışı” adlı sərginin açılışı oldu

Marneuli Gənclər Mərkəzinin təşkilatçılığı və SOCAR-ın dəstəyi ilə “Art Gallery Akhundov House”- da “Rənglərin yağışı” adlı sərginin açılışı oldu. Sərgidə Marneuli Gənclər Mərkəzinin rəsm və xalçaçılıq kurslarının



yetirmələrinin əl işləri təqdim olundu. Kvemo Kartli qubernatoru Paata Xizanişvili, Gürcüstan Şahmat Federasiyasının rəhbəri Qiorqi Qiorqadze, NATO və Avropa Birliyi informasiya mərkəzinin, Gürcüstan Fotoqraflar Assosiasiyasının, İdman və Gənclər Nazirliyinin, Amerikanın Gürcüstandakı səfirliyinin və bir sıra beynəlxalq təşkilatların nümayəndələri və rəhbərləri gənclərin əl işlərini nəzərdən keçirdilər.

# Lütfi Zadə — dünyaya milyardlar qazandıran azərbaycanlı

***Dünyanın Lütfi Zadə kimi tanıdığı məşhur şəxsiyyət 4 fevral 1921-ci ildə Bakıda Rəhim Ələsgərzadə və yəhudi əsilli pediatr Fania Korimanın ailəsində dünyaya gəlmişdir.***



Atası Rəhim Ələsgərzadə Cənubi Azərbaycanın Ərdəbil şəhərində ziyalı ailəsində dünyaya göz açmışdır. Onun valideynləri ziyalı insanlar olduğundan övladlarının sərbəst böyüməsinə mane olmur, onun həyat yolunun özü seçməli olduğuna inanırdılar. Bu səbəbdən də I Dünya Müharibəsi illərində Ərdəbildən Bakıya üz tutan Ələsgərzadələr nəslinin davamçısı olan Rəhim burda kommersiya ilə məşğul olmaq qərarına gəlmişdir.

İranda qohumları və dostları vasitəsilə külli miqdarda kibrit alan Rəhim onu Bakıya gətirib burda satışını təşkil etməklə özünə mükəmməl biznes yaradıb. Biznes fəaliyyəti ilə yanaşı indiki Bakı Dövlət Universitetində şərqşünaslıq ixtisası üzrə təhsil alıb və İranda həftəlik qəzetlərin Bakı nümayəndəsi kimi də çalışıb.

Bakıda 16 saylı məktəbin şagirdi olub. Elə uşaqlıqdan bütün gününü kitablarla keçirirmiş. Evlərindəki böyük kitabxana onun ən sevimli yeri olub. Ailənin yaxın insanları bütün gününü kitab oxumaqla keçirən bu istedadlı oğlanın böyük gələcəyi olacağına inanırmış. 9 yaşı olanda ailəsi ilə birlikdə Bakını tərk etmək məcburiyyətində qalıb. Ailəsinin təkrar İrana qayıtmasına səbəb 1932-ci ildə SSRİ-nin tətbiq etdiyi yeni qaydalar olub.

Cənubi Azərbaycandan olan azərbaycanlılar ya sovet vətəndaşlığını qəbul etməli ya da ölkəni tərk etməli idilər... Sovetlərin həyata keçirdiyi bir çox addımlardan narazı olan ailə İrana köçür (Amma Bakıda yaxın qohumları qalır və L.Zadənin onlarla əlaqələri bu günə qədər davam edir).

Bakıdan Tehrana köçəndən sonra ailəsi onu İranda amerikalıların Abors missioner məktəbinə qoyub. Artıq Tehran Universitetində oxuduğu illərdə Amerikada elmin inkişafı üçün daha yaxşı şəraitin olduğu və gələcək fəaliyyətini bu ölkəylə bağlamaq barədə düşünür. 1944-cü ildə Birləşmiş Ştatlara gələn Lütfi Zadə öz həyatını həmişəlik bu ölkə ilə bağlayır. Onu beynəlxalq aləmə tanıdan ilk işi qeyri-stasionar dövrələrin tezlik analizi məsələsi olur. O, 1948-ci ildə Kolumbiya Universitetində elektron mühəndisliyi üzrə magistr, 1957-ci ildə isə professor dərəcəsi alır. Həmin vaxt L.Zadə məşhur alim, kibernetikanın atası hesab olunan Norbert Vinerin tövsiyəsilə Kaliforniyaya, bu ştatdakı Berkli Universitetinə gəlir. Hazırda Kaliforniya Berkli Universitetinin (Berkley University) fəxri professorudur.

1952-ci ildə Ç.Raqassini ilə birlikdə Vinerin ekstrapolyasiya nəzəriyyəsinin maraqlı ümumiləşməsini təklif edir. Elə həmin il də diskret sistemlər üçün Z-çevirmə metodunu işləyir. Artıq 1957-ci ildə o, elektrik mühəndisliyi sahəsində Kolumbiya Universitetinin professoru olur və kibernetikanın atası hesab olunan məşhur alim Norbert Vinerin tövsiyəsiylə Kaliforniyaya köçür. Berklidəki Kaliforniya Universitetində kompyuter elmləri və elektrotexnika kafedrasına başçılıq edir. 1963-cü ildə idarəetmə nəzəriyyəsini kökündən dəyişdirən vəziyyətlər fəzası yanaşmasını təklif edir və Çarlz Dezoirlə birlikdə «Xətti sistemlər nəzəriyyəsi» kitabını nəşr etdirir. Beləliklə, 1960-cı illərin ortalarında L.Zadə sistemlər nəzəriyyəsi, avtomatik idarəetmə nəzəriyyələri və onların tətbiqi sahəsində ən tanınmış mütəxəssislərdən birinə çevrilir. 1965-ci ildə isə qeyri-səlis çoxluqlara aid “Fuzzy Sets” elmi məqaləsini dərc etdirdikdən sonra isə onu artıq bütün dünyanın elm çevrələri tanıyırdı. Onun bu işi bütün dünyada böyük rezonansa səbəb olmuşdu və elmdə yeni istiqamətin əsasını qoymuşdu. O, elmi araşdırmalarla sübut edirdi ki, təbii dilə əsaslanan real insan mühakimələri ənənəvi riyazi formalizmlər çərçivəsində verilə bilməz. Onun bu elmi yeniliyi, inqilabı ilk zamanlar riyaziyyatçılar arasında soyuq və ehtiyatla qarşılansa da bir neçə il sonra bütün dünya ondan yararlanmağa başlayıb.

Bu gün dünya elminə L.Zadənin 6 mühüm nəzəriyyəsi məlumdur. Hazırda onlar elm və istehsalatda geniş şəkildə tətbiq olunur. L.Zadəyə dünya şöhrəti qazandıran, onun dünya elmində inqilab hesab olunan qeyri-səlis məntiq (Fuzzy Logic) nəzəriyyəsidir. Aparıcı dünya şirkətlərinə inanılmaz məbləğdə gəlir gətirən bu nəzəriyyə 1965-ci ildə işlənib hazırlanıb.

Nəzəriyyə uzun müddət Amerika elmi ictimaiyyəti tərəfindən qəbul edilməsə də, ötən əsrin 80-ci illərində Yapon alimlərinin diqqətini cəlb edib və Yaponlar bu unikal nəzəriyyədən yararlanmaq qərarına gəliblər. L.Zadə nəzəriyyəsinin tətbiqi gündoğan ölkəyə milyardlar qazandırıb. Bu gün Yaponiyanın "Mitsubishi", "Toshiba", "Sony", "Canon", "Sanyo", "Nissan", "Honda" və digər nüfuzlu şirkətləri qeyri-səlis məntiq texnologiyasından foto ve videokameralar, paltaryuyan maşınlar, vakuum kimyəvi təmizləyiciləri istehsalında, avtomobillərin, qatarların, sənaye proseslərinin idarə olunmasında geniş istifadə edirlər.

L.Zadə 1989-cu ildə qeyri-səlis məntiq nəzəriyyəsinin sənayedəki uğurlarına görə Yaponiyanın elm adamlarına verdiyi ən yüksək mükafat - "Honda" mükafatı ilə təltif olunub. Amerikalılar da gec də olsa, L.Zadə nəzəriyyəsinin qiymətini anlamağa, ondan yararlanmağa başlayıblar. Bu gün bu nəzəriyyə Amerikanın "General Motors", "General Electric", "Motorola", "Dupont", "Kodak" və başqa şirkətləri tərəfindən istehsalatda geniş tətbiq olunur.

Dünya şöhrətli alimin dünyada məşhur olan qeyri-səlis məntiq və qeyri-səlis çoxluqlar nəzəriyyəsi ABŞ-da kosmik proqramların həyata keçirilməsində, Yaponiyada foto-radio cihazların istehsalında, eləcə də super yeni, beşinci, altıncı nəsil kompyuterlərin yaradılmasında mühüm rol oynayıb.

Lütfi Zadə dünyada əsərlərinə ən çox istinad edilən alim sayılır. Təkcə 1990-2000-ci illərdə onun əsərlərinə 36 mindən çox istinad edilib.

Lütfi Zadənin 2 övladı var: Stella Zadə və Norman Zadə. Qızı Stella 59 yaşında 2006-cı ildə vəfat etmişdir. Oğlu Norman Zadə vəkil və professional poker oyunçusudur. 1974-cü ildə Poker üzrə qalib olub.

# Gürcüstanda “maqnit adam” Etibar Budaqlı yeni rekordlara imza atıb

Tbilisidə “maqnit adam” Etibar Elçiyev-Budaqlı hər birinin çəkisi 1100 kq olmaqla iki “Nissan” markalı avtomobili 18 kq dəmir konstruksiya üzərində 60 kiloqram çəkidə gənc oturmaqla bioenerji və maqnitin gücü ilə kəndirlə 41 saniyə ərzində 10 metr məsafəyə çəkib və bununla rekord əldə edib. Keçirilən tədbirdə Etibar Elçiyev-Budaqlının sinəsində çəkiclə 17 kərpic də sındırılıb. Bununla o, 16-cı rekordu qazanıb.



Qafqaz Dünya Rekordları Federasiyasının baş katibi Şota Keldişvili qazanılan hər iki rekord göstəricinin protokollaşdırılaraq Londona və Almaniyaya göndəriləcəyini bildirib: "Biz Etibar Elçiyev-Budaqlının rekordlarına inanırıq. O, keçən il 14 dəfə dünya rekordu əldə edib və İtaliya, Rusiya, İngiltərə, Türkiyə, Almaniya, Çin və digər ölkələrdə də Gürcüstanda nümayiş etdirdiyi rekordları bir daha təzələyib”.

Etibar Elçiyev-Budaqlı açıqlamasında yalnız avtomobil çəkmək və kərpic sındırmaq deyil, eyni zamanda bədənində olan bioenerji ilə insanları müalicə etdiyini bildirib: “Biz nəzərə aldıq ki, hər iki maşını 10 metr çəkək. Bu rekord ilin axırına kimi davam edəcək və sonda ilin dünya rekordçusu məlum olacaq”.

Sonda Qafqaz Dünya Rekordları Federasiyası tərəfindən E. Elçiyev-Budaqlıya yeni rekordların şəhadətnaməsi və medallar təqdim olunub.

**Nizami Məmmədzadə**

## Emin Elsevər - 75



# Təbrik edirik!

***Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi gürcü-Azərbaycan ədəbi-mədəni əlaqələrinin görkəmli nümayəndəsi, tərcüməçi, yazıçı və publisist Emin Mahmudovu (Emin Elsevəri) 75 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, uzun ömür və yaradıcılıq uğurları arzulayır.***

# M.F.Axundov adına Azərbaycan Mədəniyyət Muzeyinin xalçaçılıq dərnəyinə vəsait ayrılıb

Gürcüstanın Mədəniyyət və Abidələrin Mühafizəsi naziri Mixail Georqadze Tiflisdəki Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyət Muzeyində fəaliyyət göstərən xalçaçılıq dərnəyinin inkişaf etdirilməsi üçün nazirliyin büdcəsindən vəsait ayrılması barədə sərəncam imzalayıb. Nazirin sərəncamı ilə azərbaycanlı uşaqların fəaliyyət göstərdiyi xalça dərnəyinə 22 min 249 lari məbləğində vəsait ayrılıb.



Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyət Muzeyinin direktoru Leyla Əliyeva Gürcüstanda xalçaçılığın inkişaf etdirilməsini Azərbaycan mədəniyyətinin vizit vəsiqəsi adlandırıb: “Artıq beşinci ildir ki, muzeyin nəzdində xalçaçılıq dərnəyi fəaliyyət göstərir. Biz keçən illərdə Gürcüstandakı muzeylərdə Azərbaycan xalçalarının sərgilərini keçirmişik. Hazırda dərnəkdə 8 nəfər gənc toxucu xalça sənətkarlığının sirlərini öyrənir”.

L. Əliyeva bildirib ki, keçən il muzeyin təşəbbüsü və təşkilatçılığı ilə Tbilisidə gürcü, ingilis, rus və Azərbaycan dillərində 1000 tirajla “Azərbaycan xalçaları” adlı kataloq nəşr edilib.

**N. Zillioğlu**

# “Əli və Nino” filminin çəkilişləri:
## *Baş qəhrəmanı ispaniyalı Mariya Valverde oynayacaq*

Qurban Səidin eyniadlı romanı əsasında çəkilən “Əli və Nino” bədii filmində baş qəhrəman – Nino rolunu İspaniyalı aktrisa Mariya Valverde oynayacaq. Bu barədə o, özü Bakıya gəldikdən sonra Twitter və İnstagram mikrobloqlarında yazıb.

O, həmçinin filmin çəkilişlərinə hazırlıq çərçivəsində çəkilmiş fotoşəkilləri paylaşıb. Qeyd edək ki, filmin icraçı prodüsseri Leyla Əliyevadır, layihəni Heydər Əliyev Fondu maliyyələşdirir.




“Əli və Nino” romanı keçmiş inqilabaqədərki Bakıda azərbaycanlı və gürcünün sevgi hekayəsidir. Hadisələr Birinci Dünya Müharibəsinin başa çatmasından dərhal sonra Azərbaycanda, Gürcüstanda və Persiyada baş verir. Axıdılan qanlar, müharibələr və iğtişaşlar fonunda gürcüstanlı Nino Kipianinin iştirakı ilə Azərbaycanlı Əli Xan Şirvanşir və erməni Melik Naxararyanın sevgi üçbucağı yaranır.

Romanda 20-ci əsrin əvvəllərinin neft paytaxtında siyasi, etnik və mədəni həyat çox gözəl təsvir edilir.

Bu layihənin həyata keçirilməsi üçün H.Əliyev Fondu İngiltərədə yaşayan hindistanlı kinematoqrafçıları dəvət edib. Xüsusən, bu, rejissor Asif Kapadia və baş rollardan birinin (Əli Xan Şirvanşir) ifaçısı Adəm Bakridir.

Asif Kapadia Böyük Britaniyada çəkilmiş bir sıra filmlərin rejissorudur. Adəm Bakriyə gəlincə, o, əslən İsraildən olan etnik ərəbdir.

Filmin ssenari müəllifi məşhur britaniyalı yazıçı və rejissor Kristofer Hampton, prodüsseri isə Kris Taykerdir.

“Əli və Nino” romanı 1937-ci ildə Almaniyada alman dilində dərc olunub və çox qısa müddətdə bir çox dillərə tərcümə olunub.

** Bu romanın müəllifi Qurban Səidin və ya Məhəmməd Əsəd bəyin şəxsiyyəti barədə dəqiq məlumat yoxdur. Bəzi araşdırmaçılar müəllifin əsl adının Leo Nossenbaum olduğunu bildirirlər. O, Azərbaycanda anadan olub və inqilabdan sonra öz yaxınları ilə Almaniyaya mühacirət edib. Belində orta məktəbi və universiteti bitirib. Sonra “Dünya ədəbiyyatı” qəzetində çalışıb. Türk, fars, rus və ərəb dillərini bilirdi. 1929-cu ildə “Şərqdə neft və qan” kitabını yazıb. Sonralar başqa əsərlərini yazıb. Almaniyada yahudilərə qarşı təqiblər başlayanda Nossenbaum Qurban Səid təxəllüsünü götürüb.*

*Lakin Azərbaycanda çoxları hesab edir ki, Qurban Səid Yusif Vəzir Çəmənzəminlinin təxəllüsüdür.*

# Gürcüstan ən çox kitab oxunan ikinci ölkədir



***Beynəlxalq Naşirlər Assosiasiyasının son araşdırmasına görə, dünyada ən çox kitab oxunan ölkə Böyük Britaniyadır.***

2014-cü ildə burda 184 000 mindən çox kitab buraxılıb.

Ən çox kitab oxunan ikinci ölkə isə Gürcüstandır.

Kitab oxunma sayına görə üçüncü yeri Tayvan, dördüncü yeri İspaniya tutur. Beşliyi Sloveniya qapadır.

Amerika reytinqdə 12-ci, Çin 25-ci yerdədir.

Maraqlıdır ki, dünyanın ən çox kitab oxunan ölkəsi həmişə ilk pillələrdə olan Rusiya son bir neçə ildir ki, ilk beşliyə daxil ola bilmir.

# Günəş enerjisi ilə işləyən təyyarə dünya səyahətinə çıxıb

Günəş İmpulsu-2 və ya qısa adı Sİ-2 adlanan, yüngül şüşə tərkibli plastikadan düzəldilən təyyarə təkmilləşdirilərək dünya ətrafında səyahət üçün hazır vəziyyətə gətirilib.

Təyyarənin bundan əvvəlki modeli Günəş İmpulsu-1, 2012-ci ildə Avropadan Şimali Afrikaya və 2013-cü ildə isə Birləşmiş Ştatlar boyunca uçuş sınağından keçirilib.

Sİ-2-nin 72 metr uzunluğundakı qanadlarına 17000-dən çox günəş batareyaları qoyulub. Batareyalar 52 kilovat gücə qədər enerji hasil edir. Batareyalar həmçinin təyyarənin gecə işləməsi üçün dörd elektrikli mühərrikin qoşulu oldu akkumulyatoru doldurur.

Bir oturacaqlı təyyarə Əbu Dabidən səmaya qalxaraq günəşin güclü olduğu ekvator boyunca uçaraq sadəcə bir neçə gün sonra fasilələrlə yerə enəcək və bu əsnada uçuş üçün nəzərdə tutulmuş iki pilot yerlərini dəyişəcək.

Layihənin həmtəsisçisi və pilotlardan biri Bertrand Pikkard deyir ki, uçuş çox səbr tələb edir.

Bertrand Pikkard: "Hamı çox həyəcanlıdır və biz həmçinin pilot və komandanı psixoloji olaraq hazırlayırıq.

Çünki texnologiya mükəmməl olsa da, siz hər bir uzun uçuşun öhdəsindən gəlməlisiniz. Tək pilotun beş gün beş gecə göyərtədə olması hamı üçün stresslidir."

Həmtəsisçi və əvəzləyici pilot Andre Borşçberq deyir ki, Sİ-2 nin avtopilotda uçmaq üstünlüyü olmasına baxmayaraq, onlar hər uçuş vaxtı ancaq 20 dəqiqə dincəlmək və ya yatmağı planlaşdırırlar.

Andre Borşçberq: "Hər gecə neçə dəfə fasilə götürəcəyimizi indidən demək çətindir. Biz hər 24 saat ərzində 6-8 dəfə üçün təlim görmüşük. Yəni hər 24 saata 2 saat yatmaq üçün vaxt ayrılır ki, bu o qədər də çox deyil."

Bertrand Pikkard deyir ki, layihənin məqsədi yenilənə bilən enerji mənbələrini və təmiz texnologiyanın üstünlüklərini nümayiş etdirməkdir.

Bertrand Pikkard: "Əgər təyyarə yanacaqdan istifadə etmədən dünya ətrafında uça bilirsə, təsəvvür edə bilərsiniz bu texnologiya hər yerdə necə istifadə oluna bilər?"

Sİ-2 mart ayında uçuşa çıxıb, iyul ayında Əbu Dabiyə geri dönəcək.



# BU YOL DƏRVİŞLƏR YOLUDU...



## Nəriman Həsənzadəyə ismarıc

Günaydın, NərimanHəsənzadə!

Xoş gördük, ustad!

Sizə bu ismarıcı Borçalıdan göndərirəm. Və bilmirəm bu bir təşəkkürdü, yoxsa minnətdarlıq. Amma onu bilirəm ki, mən bu ismarıcı hazırlayana qədər hansı hissləri yaşamışam. Bir ömrə bərabər o xoş duyğuları mənə Haqdan göndərilən bir pay kimi, bir ərməğan kimi çatdırdığınıza görə, Tanrı sizi var eləsin.

"Haqqı batil" eləməyə çalışan bu amansız zamanda öz könül dünyasında haqq nuru yandıran və o nurun işığına yön çöyürənlər çox azdı, Nəriman müəllim. İçində nur şölələnən o az adamlardan biri və bəlkəsiz, elə birinci gördüm sizi.

Bacardığım qədər yaradıcılığınızı sevə-sevə izləyirəm, bu öz yerində. Bu günlərdə Azərbaycanımızın çox dəyərli oğlu, ictimai və siyasi xadimi, dəyərli şairi, qardaşım Hacan Hacısoy məni aradı və muştuluq istədi. Xalq şairimiz Nəriman Həsənzadənin "Seyid Nigari Türbəsi" adlı çox gözəl bir poema yazdığını və həmin əsərin beşinci bölümü mənim Dədəmə - dövrünün böyük Dərvişi, Seyid Nigari və Hacımahmud Əfəndi (Hajəfəndi) müridi Cındır Osmana həsr elədiyini söylədi. Həmin əsər "525-ci qəzet"-də (13 dekabr, 2014) dərc olunmuşdu.

Biz görüşdük. Sakit bir guşədə Hacan Hacısoy poemanı başdan-ayağa aramla oxudu. Hər ikimiz göz yaşımızı tuta bilmədik... Bu belə də olmalıydı. Hər ikimizin soyumuzun bağlı olduğu Pirdən söhbət gedirdi.

Məni mənnən alan, varlığımı zəlzələyə salan bu əsəri sonra bir də oxudum. Bəlkə də düz demədim, bir həb kimi, dərman kimi uddum. İçimə bir rahatlıq, qəlbimə bir sevinc, arzularıma müjdə gəldi dönə-dönə.

Mən fur sovet imperiyasının manqurt kölələri – sapı özümüzdən olan koruş baltalar milli-mənəvi dəyərlərimizə nə qədər zərbələr vurdular. Yada yamalıq olanlar darğalıq elədiyi zamanlarda belə, əsil olanlar qorxmadı, əyilmədi. Əzildi, fəqət sınmadı.

Əsərlərinin çapı qadağan olan, adının anılması yasaqlanan Mir Həmzə Seyid Nigari həzrətlərinin qələmindən çıxan nə varsa – hamısını könül dəftərlərinə yazdı könül adamları. El-el, oba-oba avazla söyləyə-söyləyə gəzdilər. Ədəbiyyat tariximizdə heç bir şairin bu qədər şeiri, daha doğrusu, bütün külliyyatı bunca sevilərək dillər əzbəri olmayıb Seyid Nigaridən başqa.

Ustad! Siz Həzrəti-Pirə üz tutdunuz. Siz onu duydunuz. Onu sevdiniz. Onun türbəsini ziyarət elədiniz. Və yazmış olduğunuz möhtəşəm "Seyid Nigari Türbəsi" adlı poemanızla ustada ən layiqli abidə ucaltdınız.

*... Seyid HəmzəTürbəsinin*
*Hər daşı, kərpici pakdı,*
*Çölü pakdı, içi pakdı.*
*Yerdə Məscid –*
*üstündəki bir Allahdı! – dediniz.*

Nəriman müəllim! Nəqşibəndilik təriqətinin, sufizmin yayıldığı və ölümsüzləşdiyi məkanlardan biri də Borçalı məmləkətidi. Taa o zamanlardan bu günə qədər Borçalıdakı Seyid Nigari heyranları onun qəzəllərini və bütövlükdə "Divani-şərif"ini başdan-ayağa yaddaşlarda yaşadır və öz sufi məclislərində avazla söyləyirlər. İncə Dərəsində Hacımahmud Əfəndi türbəsini ziyarət eləyənlər o ocağı və orda Haqqa bağlı olan kəsləri çox iyi anlayır.

Mən o ziyarətgaha, Həzrəti-Pirə könül verən bir ocağın törəməsiyəm. Uşaqlıqdan həmən ziyarətgaha Borçalıdan ayaqyalın gedənlərdənəm. Axşamdan-sabaha qədər sufi müridlərinin oxuduğu Nigari şeirlərini dinləyənlərdənəm. Qaynar samovarı cəzv olub başına tökənlərdən, ayaqyalın köz içində oynayanlardanam.

Mənim Dədəm (atamın atası) Cındır Osman – dərvişlər dərvişi, ömrünün əlli beş ilini mənəviyyata hizmətdə keçirib. Seyid Həmzə Nigari "dəli"si olub. Amasyada Miri Nigariyə, İncə Dərəsində Hacımahmud Əfəndiyə. Qarabağda Həmzə bulağına, Beyləqanda Cərcis peyğəmbərə baş əyib.

Atla ağıl kəsməyən məsafələr qət eləyib. Dağlar aşıb, sərhədlər keçib. Ən qorxulu yerlərdən keçən Cındır Osman apardığı saysız-hesabsız qızıllarla Osmanlının Amasya şəhərində bu gün də şahanə əzəmətiylə ayaqda duran "Şirvanlılar" camesinin tikintisinin başa çatmasına yardımçı olub. Və bu gündə Seyid Nigari Həzrətlərinin və oğlu Siracəddin Əfəndinin qəbirləri həmin camedə iqamət etməkdədir.

Borçalı, Qazax və Dağıstandan Hacımahmud Əfəndinin, Seyid Nigari Həzrətlərinin müqəddəs məqamlarına göndərilən hədiyyələr və bəxşeyişlər arasında altı yüzdən (600) fazla xalı-xalça da olub ki, onları da buralardan Amasya şəhərinə qədər Cındır Osman aparıb, çatdırıb. Amma sufiliyə, nəqşi bəndiliyə, dərvişliyə, Seyid Nigari Həzrətlərinə, Hacı Mahmud Əfəndiyə yad və yabançı, naşı olan birisi vaxtilə yazmış olduğu bir cümləsində övliya dədəmizi "Cındır Osman adlı Borçalı taciri" adlandırmışdı ("Borçalı" kitabı, Bakı, 1996).

Halbuki, bu gün Qaraçöpdən Başkeçidə, Qazax (başda İncə Dərəsi), Türkiyənin Kars vəAmasya vilayətləri – başda keçmiş millət vəkili, indiki adıbəlli hüquqşünas-vəkil Orhan Kayıhan olmaqla hər kəs Cındır Osmanı "Həzrəti-Pir"in və Hajəfəndinin yolun da öz ömrünü pay-paxac eləyən bir övliy akimi tanıyır, onun inamına, əqidəsinə, getdiyi yola and içir.

Nəriman müəllim! Siz çox böyük həssaslıqla, inamla və saygıyla qələmə aldığınız bu mənəviyyat dastanıyla çox qaranlıqlara işıq saldınız. Xalq şairi Mirvarid xanım və onun bacısıYaqut xanım Dilbazilərin bir ömür ruhuna "Yasin" oxuduğu bir Haqq aşiqi olan Çındır Osmanın kimliyinidə bu əsərinizlə gün üzünə çıxardığınıza görə dönə-dönə mərhəba, ustad!

Bu möhtəşəm əsərinizlə siz kökə-soya, dünənə, nurlu həqiqətə, gözüaçıqlığa, halal tarixə açılan könül qapısına vurulan paslı qıfılları param-parça elədiniz. Biz inanırıq ki, çağdaş Azərbaycan-Türk-Turan ədəbiyyatının ən gözəl örnəklərindən biri olan "Seyid Nigari Türbəsi" əsəri bir dastan kimi əl-əl gəzəcək, el-el gəzəcək. Sufi məclislərində mürşidimiz Həzrəti-Pirə, onların ən nurlu müridi və Haqq yolunun halal dərvişi olan Cındır Osmana innən sonrakı tariximizin bütün zamanlarında bir Haqq duası kimi oxunacaq və əbədiyyən yaddaşlara yazılacaqdır. TanrıTürkü qorusun!

***Sizlərə tükənməz sayğılarla:***
**Cındır Osmanın nəvəsi**
**Dərviş Osman Əhmədoğlu**
***25 yanvar, 2015.***

# Polad Bülbüloğlunun 70 illik yubileyi qeyd edildi

***Azərbaycanın Rusiyadakı səfiri, Xalq artistinin Polad Bülbüloğlunun 70 illik yubileyi ilə əlaqədar Heydər Əliyev Sarayında konsert keçirilib.***



Tədbirdə hökumət və dövlət rəsmiləri, səfirlər, mədəniyyət və incəsənət xadimləri iştirak edib.

P. Bülbüloğlu konsertdə məşhur "Azərbaycan" mahnısını oxuyub və qeyd edib ki, Heydər Əliyev Sarayı onun üçün əziz yerdir: "Gəncliyimdə bu Sarayda çox konsertlər vermişəm. Daha sonra nazir olanda məhz bu səhnədə böyük yubiley tədbirlərində çıxış etmişəm. 70 illik yubileyim həm də mənə ona görə əlamətdar oldu ki, prezident İlham Əliyev məni "Şərəf" ordeni ilə təltif etdi. Bu konsertdə mənim çox yaxın dostlarım iştirak edir. Onların işləri çox olsa da, vaxt tapıb bu əziz gündə mənimlə bir yerdə yubiley tədbirində iştirak edirlər".

Tədbirdə Rusiya dövlətinin nümayəndəsi Mixail Şvitkoy, Türksoyun baş katibi Düsen Kaseinov, xalq yazıçısı Anar və başqaları çıxış edərək P. Bülbüloğlunu yubiley münasibəti ilə təbrik ediblər.

Yubiley mərasimində SSRİ xalq artistləri İosif Kobzon, Nani Breqvadze, Jurabek Murodov, Rusiyanın xalq artistləri Lev Leşşenko, Larisa Dolina, Zaur Tutov, Gürcüstanın xalq artisti Vaxtanq Kikabidze, görkəmli mədəniyyət və ictimai xadimlər Yuli Qusman, Mixail Qusman, və digər mədəniyyət, incəsənət xadimləri, dövlət və hökumət nümayəndələri iştirak edib.

# Yeni nəşrlər

**Yusif Yusiflinin** Bakıdakı "Təhsil" mərkəzinin "Borçalı" nəşriyyat poliqrafiya müəssisəsində işıq üzü görmüş "Şəmsi Əlizadə" kitabı 20-30-cu illərin görkəmli maarif xadimi istedadlı şair, Vətəni uğrunda canını fəda etmiş cəsur gürcüstanlı Şəmsi Əlizadə haqqında düşüncələrdən ibarətdir. Nəşriyyatın baş direktoru Müşfiq Borçalıdır. Kitabın baş redaktoru mərhum Arif Əmrahoğlu, redaktorları professor Aysəba Əlizadə və professor Fərhad Xubanlıdır. Məsul katib Musa Yusiflidir.




**Elmuraz Köçəri** çağdaş Azərbaycan ədəbiyyatının Gürcüstanda yaşayıb-yaradan istedadlı nümayəndələrindəndir. Elmurazın poetik dünyası olduqca zəngindir. Vətən eşqi, ümummilli qayğılarımız, müasir insanın psixoloji halları, özünün şair ömrünün ayrı-ayrı ziddiyyətli məqamları və s. onun şeirlərinin əsas mövzusudur.

"Quşlar köçə hazırlaşır" adlı şeirlər kitabının müəllifi olan şair dostumuzun toplu halında oxucularla ikinci görüşü olan "Mənsiz ötən günlərim" kitabının maraqla qarşılanacağına inanırıq. Nəşrin rəhbəri, redaktor və ön sözün müəllifi Rafiq Hümmətdir. Kitab Tbilisidəki "Universal" nəşriyyatında çap olunub.




# Bir kollektivin təşəkkürü

Bu günlərdə özü bütöv, sözü bütöv ürəyi geniş, səmimi insan, sədaqətli dost, gözəl ziyalı və dəyərli alim Mahmud Kamaloğlunun "RegionPress" qəzetinin 176-cı sayında işıq üzü görən "Cındır Osman" adlı məqaləsinin geniş müzakirəsi oldu. Müzakirə davam etdikcə ruhlarımıza ruhlar aləmindən ulu övliya Hajı Əfəndi babamızın və Cındır Osman babamızın tərəfindən sığal çəkildiyini duyduq.

Əvvəllər Cındır Osmanın xeyirxahlığını ağsaqqallardan eşidirdik. Gəlin açıq etiraf edək ki, bəzi "ağzıgöyçəklər" başqa fikirlər söyləyirdilər. Amma xalq şairi, səsində və danışığında İlahi sevgi olan Nəriman Həsənzadənin "Seyid Nigari Türbəsi" adlı poemasından parçanı oxucular oxuduqca qəlblərində mərhəmət şamının işığını duydular. Oxucu mənən ulu Tanrıya və onun övliyalarına min dəfələrlə şükürlər deməklə özlərində bir rahatlıq duydular.

Bəli, bu anda Cındır Osmanın nəvəsi Dərviş Osmanın bir bənd şeiri yerinə düşür:

*Çox əlandi amalımla bu gərdiş,*
*Məni yoldan döndərəmməz hər vərdiş.*
*Dədəm dərviş, babam dərviş, mən dərviş,*
*Dünya mənə bir tamaşa, gəlmişəm.*

Əziz oxucular, dərvişlik Cındır Osmanın nəsil estafetində davam edir və edəcəkdir. Bu belə də olmalıdır. Ona görə ki, genlərin tərbiyəsində olan nuklein turşuları hüceyrənin nüvəsində irsiyyəti yaşadır və nəsildən nəslə ötürür.

Sonda kollektiv qəzetin əməkdaşlarına xüsusi təşəkkür etdilər; qəzetdə dərc olunan birbirindən dəyərli yazılar, oxucuları hərtərəfli maarifləndirir.

***Marneuli rayonundakı İlməzli ümumi məktəbin müəllim kollektivi adından***
**Suddarxan Kazımov**

Azərbaycanlıların Mədəniyyət Mərkəzi
Region PRESS
İctimai qəzet
№03 (178) 13.02.2015
Qəzet 2008-ci il martın 15-dən çıxır

**Kitab mənim üçün tacdan qiymətlidir.**
V.Şekspir

## Dünyanın ən bahalı şirkəti bəlli oldu

***Bu, rekorddur. "Apple" şirkəti dünyanın ən bahalı şirkəti olub.***




"Apple" şirkəti hərracların bağlanmasında kapitallaşdırılması 700 milyard dolları keçən ilk Amerika şirkəti kimi tarixə düşüb və ən bahalı şirkət adına layiq görülüb. Bunu "Nasdaq" birjasının məlumatları təsdiq edib. Hərracların bağlanmasında "Apple" şirkətinin səhmləri 122,02 dollar təşkil edib. Bu isə onun bazar kapitallaşdırılmasını 710,7 milyard dollar olaraq qiymətləndirməyə imkan verir.

Bu vaxta qədər ABŞ-ın heç bir şirkəti 700 milyardlıq xətti keçə bilməyib.

## Azərbaycanlı bəstəkar "Grammy" alıb

Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadənin əsərinin də daxil olduğu məşhur Amerika skripkaçısı Hillary Hanın "Deutsche Grammofon" albomu "Grammy" mükafatına layiq görülüb. Bu albomda Azərbaycanlı bəstəkar Firəngiz Əlizadənin də əsəri yer alıb.



Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin yaydığı xəbərə görə, albom "İlin ən yaxşı kamera musiqisi" nominasiyasının qalibi seçilib.

Musiqi dünyasının ən nüfuzlu mükafatı olan "Grammy" laureatlarının 57-ci təqdimat mərasimi fevralın 8-də ABŞ-ın Los-Anceles şəhərində "Staples Center" idman kompleksində keçirilb.

Azərbaycan musiqisi tarixində ilk dəfədir ki, bəstəkar belə bir nüfuzlu mükafatın qalibi olur.

## 81 il evli olan cütlük mükafat qazandı

***ABŞ-ın Kanzas ştatından olan cütlük ən uzunömürlü evli cütlük yarışında qalib gəlib.***



99 yaşlı Elis və Deyl cütlüyü 1933-cü ildə nikah bağlayıb.

18 yaşında ailə həyatı quran Elis və Deyl 375 uzunömürlü evli cütlüyü qabaqlayaraq, birinci yerə çıxıblar.

Ən uzunömürlü evli cütlüyün 7 övladı var. Onların ən böyük övladının 79 yaşı var.

## Çaplinin "Oskar"ını oğurladılar

***Parisdə "Çaplin Assosiasiyası"nın ofisindən əfsanəvi aktyor Çarli Çaplinin ilk "Oskar" mükafatı oğurlanıb.***



Heykəlciyin dəyəri 1 milyon dollar qiymətləndirilir.

Təşkilatın ofisindən həmçinin Ç.Çaplinə məxsus, hər birinin qiyməti 90 min dollara bərabər qələmlər yoxa çıxıb.

Cinayətkarlar yalnız adıçəkilən əşyaları götürüblər. Polisdən verilən məlumata görə, "Çaplin Assosiasiyası"nı qarət edənlər yaxşı məlumatlı olublar. Faktla bağlı araşdırmalara başlanılıb.

Qeyd edək ki, Çarli Çaplin (1889-1977) 1929-cu və 1972-ci illərdə incəsənətə verdiyi töhfəyə görə "Oskar" mükafatına layiq görülüb. Daha bir "Oskar"ı isə Ç.Çaplin "Ən yaxşı film musiqisi" nominasiyasında qazanmışdı.

## "Qara kitab"ın olduğunu bilirdinizmi?

***1958-ci ildə alimlər "Qırmızı kitab"la bərabər "Qara kitab"ın da nəşrinə qərar verdilər.***

Bildiyimiz kimi "Qırmızı kitab"da Yer üzündə sayı azalmaqda olan və ya nəsli, kökü kəsilmək təhlükəsi ilə üzləşmiş flora və fauna nümunələri barədə məlumatlar verilir.

"Qara kitab"da isə Yer üzündə vaxtilə mövcud olmuş, nəsli, kökü kəsilmiş, yoxa çıxmış flora və fauna nümunələri barəsində məlumatlar verilib.



### Başsağliği

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi Gürcüstan Aşıqlar Birliyinin sədri ***Dərviş Osmana*** qardaşı oğlu
**Məhəmmədin**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.
***Allah rəhmət eləsin!***

## Hind xalı nə məna verir?

***Hindli qadınların alınlarında qara, qızmızı rəngli xalı qədimdən gəlmə bir milli makiyaj forması olduğunu düşünürlər.***



Amma bu heç də adi bir makiyaj forması deyil. Qədimdən indiyədək gəlib çatan hind inanclarına görə, alının orta qismi ruhun insan bədənindəki yeri və yaxud 3-cü gözün olduğu yer olaraq qəbul edilir.

Hindli qadınların alınlarında gördüyümüz bu xala "bindi" deyilir. "Bindi" əsasən, iki rəngdə olur: qara və qırmızı rənglərdə. Subay qadınlar alınlarına qara, evli qadınlar isə alınlarına qırmızı rəngli "bindi"lər qoyurlar.

Meditasiya halında həyat yaşayan hindlilər alınlarının ortasında olan "bindi"nin açılmasına ümid edirlər. Yəni, "bindi" müəyyən mənada, ruhi səfərin də simvoludur.

"Bindi" – "Bindu" sözündən törəmiş, sanskritcədən "nöqtə" mənasını verir.

Ümumuyyətlə, "bindi" olaraq, hal-hazırda, əsasən, qara və narıncı rənglərdən istifadə edilir. Hindli qadınların alınlarına yapışdırdıqları "bindi" adı verilən xalın eyni zamanda mənfi düşüncələrdən qoruma xüsusiyyəti olduğuna da inanılır.

Subayların qara, evlilərin qırmızı (narıncı) rəngdə qoyduqları "bindi"lər, indiki vaxtda aksessuar olaraq istifadə edildiyi üçün, alının mərkəzinə qoyulan "bindi"lər müxtəlif formalı və müxtəlif rənglərdə də ola bilir.

## Lətifələr



*Ana: Niyə evə gec gəldin?*
*Uşaq: Liftə yazılmışdı ki, 4 nəfərdən artıq adam minməsin.*
*Ana: Hə, nə olsun ki?*
*Uşaq: Özümdən başqa 3 nəfəri də gözləməli oldum.*

***

*Siçan anasına deyir:*
*- Ana, həyat cox qəribədi..*
*- Niyə?*
*- Bax, biz pişiklərdən qorxuruq, pişiklər itlərdən, itlər insanlardan, insanlar kişilərdən, kişilər qadınlardan, qadınlar isə bizdən.*
*Gör nədən qorxuruq ee?...*

*Təsisçi:* *Azərbaycanlıların Mədəniyyət Mərkəzi (AMM)*
*AMM-in sədri:* **Fazil HƏSƏNOV**

*Redaktor:* **Binnət ƏLİOĞLU**
*Məsul katib:* **İbrahimxəlil**
*Texniki redaktor:* **Əkrəm QƏHRƏMANOV**
*Kompyuter tərtibatçısı:* **Bahar MƏMMƏDOVA**

***Redaksiyanın ünvanı:***
Marneuli şəhəri, Çolokaşvili küç. 3
İndeks: 3000 Tel.: (+995 357) 22 29 29
Faks: (+995 357) 22 57 88
E-mail: regionpress@yahoo.com
Qəzetimizi Facebook səhifəmizdə də oxuya bilərsiniz:
https://www.facebook.com/regionpress.AMM

**Qeydiyyat şəhadətnaməsi: 09.09.2004. №43/5 z—9**

Fakta və ifadə olunan fikrə görə məsuliyyəti müəlliflər daşıyır.
Qəzet pulsuz yayımlanır.
**TİRAJ: 2000**